3. Поручить т.т. Алиевой С.А. и Курбанову К.Г. согласовать с Министерством культуры Азербайджанской ССР вопросы, связанные с оказанием помощи работниками искусства Азербайджана, в порядке шефства, для подготовки (к выступлению в г. Баку) художественной самодеятельности Нахичеванской АССР.

4. Поручить Идеологическому отделу Обкома партии установить строгий контроль за ходом подготовки к проведению дней литературы и искусства Нахичеванской АССР в городе Баку.

СЕКРЕТАРЬ НАХИЧЕВАНСКОГО
ОБКОМА КП Азербайджана – Г. ИБРАГИМОВ.

## Azərbaycan Kommunist Partiyası Naxçıvan Vilayət Komitəsi Bürosunun

## Q Ə R A R I

### Bakı şəhərində muxtar respublikanın 40 illiyinə həsr olunan Naxçıvan MSSR ədəbiyyat və incəsənət günlərinin hazırlanması və keçirilməsi haqqında

1.Vilayət Partiya Komitəsinin İdeoloji şöbəsindən, Naxçıvan MSSR Mədəniyyət Nazirliyi və Azərbaycan Yazıçılar İttifaqı Naxçıvan şöbəsi tərəfindən təqdim olunan Bakı şəhərində muxtar respublikanın 40 illiyinə həsr olunan Naxçıvan MSSR-in ədəbiyyat və incəsənət günlərinin keçirilməsi və hazırlanması planı təsdiq edilsin.

2.Naxçıvan MSSR Mədəniyyət Nazirliyinə və Azərbaycan Yazıçılar İttifaqı Naxçıvan şöbəsinə tapşırılsın ki, Bakı şəhərində Naxçıvan MSSR-in 40 illiyinə həsr olunan ədəbiyyat və incəsənət günlərinin keçirilməsinə hazırlıq işlərinin 1964-cü il sentyabrın 1-dək başa çatmasını təmin etsin.

3.S.Ə.Əliyeva və K.H.Qurbanova tapşırılsın ki, Naxçıvan MSSR-in bədii özfəaliyyətinin Bakı şəhərində çıxışa hazırlığını və Azərbaycan incəsənət işçilərinə kömək göstərilməsi ilə bağlı məsələləri Azərbaycan SSR Mədəniyyət Nazirliyi ilə razılaşdırsın.

4.Vilayət Partiya Komitəsinin İdeoloji şöbəsinə tapşırılsın ki, Bakı şəhərində Naxçıvan MSSR ədəbiyyat və incəsənət günlərinin keçirilməsinə hazırlığın gedişinə nəzarəti təmin etsin.

**Azərbaycan KP Naxçıvan Vilayət**
**Komitəsinin katibi:** **H.İBRAHİMOV**

*15 iyun 1964-cü il*

# AZƏRBAYCAN KP NAXÇIVAN VİLAYƏT KOMİTƏSİNİN, NAXÇIVAN MSSR ALİ SOVETİNİN NAXÇIVAN MSSR-İN 40 İLLİYİNƏ HƏSR OLUNMUŞ İCLASI

Qədim Naxçıvan torpağı bayram şənliyinə qərq olmuşdur. Respublikanın bərəkətli torpaqları, gur çayları, aydın səması və əməksevər adamları muxtar respublikanın təşkil olunmasının 40 illiyini qeyd edirlər. Muxtar respublikanın paytaxtı bayram libası geymişdir. Yenicə istifadəyə verilmiş dram teatrın binası qarşısındakı mərkəzi meydan xüsusi bəzənmişdir. Teatra ilk dəfə gələnlər Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin və Naxçıvan MSSR Ali Sovetinin muxtar respublikanın 40 illiyinə həsr olunmuş təntənəli iclasının iştirakçılarıdırlar. İclas teatrın gözəl və geniş salonunda keçirilir. Bura Naxçıvanın şanlı pambıqçılarının, tütünçülərinin, üzümçülərinin, heyvandarlarının və hələ 40 il bundan qabaq özünün sənaye müəssisələri olmayan respublika gənc fəhlə sinfinin, ziyalıların, partiya, sovet, həmkarlar ittifaqı və komsomol təşkilatlarının nümayəndələri gəlmişlər.

Təntənəli iclasın rəyasət heyyətində Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi V.Y.Axundov, Azərbaycan SSR Nazirlər Sovetinin sədri Ə.N.Əlixanov, Sovet İtiifaqı KP MK Zaqafqaziya bürosu sədrinin müavini O.D.Qotsiridze, Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin birinci katibi H.X.İbrahimov, Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyyətinin sədri S.A.Əliyeva, Muxtar Respublika Nazirlər Sovetinin sədri R.Ə.İsmayılov, Gürcüstan KP Acarıstan Vilayət Komitəsinin birinci katibi A.D.Txilaşvili, Dağıstan Vilayət Partiya Komitəsinin katibi Ş.Ə.İsmayılov, Bakı zəhmətkeşlərinin nümayəndələri, Sumqayıtın, Azərbaycanın digər şəhər və rayonlarının nümayəndələri, vilayət partiya komitəsi, Ali Sovetin Rəyasət Heyəti və Muxtar Respublika Nazirlər Sovetinin rəhbər işçiləri, dövlətə kənd təsərrüfatı məhsulları satışı planlarını vaxtından əvvəl yerinə yetirmiş kolxozların sədrləri və başqaları əyləşmişlər.

Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin sədri S.A.Əliyeva təntənəli iclası açdı və qısaca olaraq muxtar respublika zəhmətkeşlərinin əziz bayrama necə hazırlaşdıqlarından danışdı.

"Naxçıvan MSSR-in 40 illiyi haqqında" məruzə etmək üçün söz Vilayət Partiya Komitəsinin birinci katibi H.X.İbrahimova verildi. Sonra So-

vet İttifaqı KP MK Zaqafqaziya bürosu sədrinin müavini Qotsiridze, Gürcüstan KP Acarıstan Vilayət Komitəsinin birinci katibi A.D.Txilaşvili, Dağıstan Vilayət Partiya Komitəsinin katibi Ş.Ə.İsmayılov, Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun rektoru, professor İ.Ə. İbrahimov çıxış etdilər.

Təntənəli iclasda muxtar respublikanın zəhmətkeşlərini Zaqafqaziya sərhəd qoşunları dairəsinin komandiri general-mayor V.A.Matrosov sərhəd döyüşçüləri adından, Sumqayıt Şəhər Partiya Komitəsinin katibi R.H.Məmmədzadə respublikamızın kimyaçıları adından salamladı.

Təntənəli iclasın iştirakçıları Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi V.Y.Axundovun nitqini böyük diqqətlə dinlədilər. O, Azərbaycan KP Mərkəzi Komitəsinin, Respublika Nazirlər Sovetinin və Respublika Ali Sovetinin Rəyasət Heyyətinin adından və onların tapşırığı ilə Azərbaycanın bütün zəhmətkeşləri adından təntənəli iclasda iştirak edənləri və onların şəxsində Naxçıvan Muxtar Respublikasının bütün zəhmətkeşlərini böyük bayram münasibətilə təbrik etdi. Natiq xüsusilə Naxçıvanın kəndlərində baş vermiş yeniliklərdən, bərəkətli torpaqlarına bolluq gətirən texnikadan, suvarma tədbirlərindən danışdı. O, qəhrəmanların, sənaye və kənd təsərrüfatı sahələrində fədakar əmək göstərən adamların adlarını çəkdi. Axundov Azərbaycanlı qadınların əməyindən, təsərrüfat və mədəni quruculuq sahəsində iştirakından danışdı. Muxtar respublika zəhmətkeşlərini yubiley münasibətilə bir daha təbrik edərək Azərbaycan KP Mərkəzi Komitəsinin, Respublika Ali Soveti Rəyasət Heyətinin və Azərbaycan SSR Nazirlər Sovetinin təbrik məktubunu oxudu.

Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin birinci katibi H.X.İbrahimov muxtar respublikanın şanlı bayramına gəlmiş qardaş respublikaların, Azərbaycan şəhər və rayonlarının nümayəndələrinə bir daha minnətdarlığını bildirərək dedi ki, Naxçıvan MSSR zəhmətkeşləri muxtar respublikanın iqtisadiyyatını və mədəniyyətini daha da inkişaf etdirməyə ruhlanacaq və onların bu sahədəki nailiyyətləri artacaqdır.

Təntənəli iclas bağlı elan edildi. Həmin günün axşamı təntənəli iclasın iştirakçıları üçün Bakı və Naxçıvan şəhər incəsənət ustalarının iştirakı ilə geniş konsert verildi.

*"Şərq Qapısı" qəzeti,*
*15 oktyabr 1964-cü il*

# NAXÇIVAN ŞƏHƏR ZƏHMƏTKEŞLƏRİNİN MUXTAR RESPUBLİKANIN 40 İLLİYİNƏ HƏSR EDİLMİŞ TƏNTƏNƏLİ MİTİNQİ

Bir neçə gündür ki, Naxçıvan şəhəri bayram libası geymişdir. Küçələr və meydançalar dövlət bayraqları, al-əlvan transparantlar və rəngbərəng lentlərlə bəzədilmişdir.

Oktyabrın 18-də bayram şənlikləri mərkəzi respublika stadionunda davam edirdi. Minlərlə naxçıvanlı muxtar respublikanın 40 illiyinə həsr edilmiş mitinqdə iştirak etmək üçün buraya toplaşmışdır.

Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi V.Y.Axundov, Azərbaycan SSR Nazirlər Sovetinin sədri Ə.N.Əlixanov, Sovet İttifaqı KP MK Zaqafqaziya Bürosu sədrinin müavini O.D.Qotsiridze, Naxçıvan MSSR partiya və sovet təşkilatlarının rəhbərləri, qardaş Gürcüstan, Dağıstan zəhmətkeşlərinin, respublika paytaxtı Bakının, Azərbaycanın şəhər və rayonlarının nümayəndələri mərkəzi tribunada idilər.

Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin birinci katibi H.X.İbrahimov şəhər zəhmətkeşlərinin mitinqini açdı. O, muxtar respublika zəhmətkeşlərinin özlərinin şanlı yubileyini fərəhli nailiyyətlərlə qarşıladıqlarını qeyd etdi.

Mitinqdə Naxçıvan Tikinti İdarəsi suvaqçılar briqadasının başçısı Zalo Rzayev zəhmətkeşlər, Naxçıvan şəhərindən Ü.Hacıbəyov adına məktəbin 10-cu sinif şagirdi Flora Qurbanova və internat məktəbin müəllimi Lətifə Kələntərli Naxçıvan MSSR-də xalq maarifinin inkişafından, Naxçıvan duz mədəninin mühəndisi, Azərbaycan SSR-in əməkdar mühəndisi Nikolay Altuxov duz istehsalından danışdılar. Sonra mitinqdə Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi V.Y.Axundov çıxış etdi.

O, Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi, Respublika Ali Sovetinin Rəyasət Heyyəti və Naxçıvan Soveti adından Naxçıvan MSSR-in 40 illiyi münasibətilə mitinq iştirakçılarını təbrik etdi. Qeyd etdi ki, 40 il tarixdə çox böyük müddət deyildir, lakin bu illər ərzində çox iş görülmüş və keçmişdə feodal patriarxal münasibətlərin iztirablarına düçar olan Naxçıvan inkişaf etmiş, sənayesi və mexanikləşdirilmiş kənd təsərrüfatı və yüksək mədəniyyəti olan respublikaya çevrilmişdir. Sonra Naxçıvan torpağının Azərbaycan respublikasına və ölkəmizə verdiyi görkəmli elm adamları və yazıçılar haqqında danışaraq Yusif Məmmədəliyevin, Məmməd Səid Ordubadinin, Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin və Azərbaycan xalqının fəxri olan digər alimlərin adlarını çəkdi. Natiq göstərdi ki, Azərbaycanın xalq yazıçılarından Süleyman Rəhimov, Mirzə İbrahimov, yazıçı Əli Vəliyev və başqaları Nax-

çıvanda çalışaraq buranın adamlarının özlərinin gözəl əsərlərinin qəhrəmanları kimi qələmə almışlar. Natiq qeyd etdi ki, Naxçıvan MSSR-in zəhmətkeşləri ilə birlikdə bütün Azərbaycan xalqı, həmçinin Vətənimizin digər qardaş xalqları muxtar respublikanın yubileyini qeyd edirlər.

V.Y.Axundov sonra muxtar respublikanın qarşısında duran mühüm vəzifələrdən danışdı. O, göstərdi ki, respublikada kənd təsərrüfatının intensiv inkişaf etdirilməsindəki işləri hələ kifayətləndirici hesab etmək olmaz. Axundov imkanlardan geniş istifadə etmək, əkinçilik mədəniyyətini artırmaq, iqtisadi cəhətdən geri qalan kolxozları qabaqcıllara çatdırmaq, muxtar respublikanın ərazisində olan faydalı qazıntılardan səmərəli istifadə etmək, əmək məhsuldarlığını artırmaq, əsaslı tikintidə işləri yaxşılaşdırmaq haqqında ətraflı danışdı.

Zəhmətkeşlərin ümumşəhər mitinqi bağlı elan edildi. Stadionun yaşıl meydanında artistlərin, bədii özfəaliyyət dərnəkləri üzvlərinin iştirakı ilə geniş proqramda konsert verildi.

*"Şərq qapısı" qəzeti,*
*20 oktyabr 1964-cü il*



# NAXÇIVAN MUXTAR RESPUBLİKASI 50

## 1924-1974

## AZƏRBAYCAN KOMMUNİST PARTİYASI MƏRKƏZİ KOMİTƏSİNƏ

9 fevral 1974-cü ildə Naxçıvan MSSR yaranmasının 50 ili tamam olur. Muxtar respublikanın yaranmasının 50 illiyinə hazırlıq ilə əlaqədar Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi Sizdən aşağıdakı məsələlərə baxmağınızı və razılaşmağınızı xahiş edir:

Tarixi və sovet hakimiyyəti illərində təsərrüfat və mədəniyyət quruculuğunda nail olunan uğurları əks etdirən "Naxçıvan-50 il" kitabının nəşr olunması.

"Almanax" kitabının və Naxçıvan MSSR-də yaşayan Yazıçılar İttifaqı üzvlərinin müxtəlif əsərlərinin nəşr olunması.

50 illik yubiley ərəfəsində Bakı şəhərində Naxçıvan MSSR ədəbiyyat və incəsənət günlərinin keçirilməsi.

Muxtar respublikanın xalq təsərrüfatı və mədəni quruculuq inkişafını əks etdirən "Naxçıvan MSSR-50 il" adlı qısametrajlı kinofilmin çəkilişi.

Döş nişanı və "Naxçıvan MSSR-50 il" yubiley medalının hazırlanması və verilməsi.

**Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin katibi:** **A.HÜSEYNOV**

Naxçıvan şəhəri,
6 fevral 1973-cü il

## Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının 50 illiyi haqqında

## AZƏRBAYCAN KOMMUNİST PARTİYASI MƏRKƏZİ KOMİTƏSİ BÜROSUNUN

## Q Ə R A R I

1. Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının yaranmasının 50 illik yubileyinin keçirilməsi haqqında təklifi qəbul edilsin. Yubiley tədbirləri 1974-cü ilin may ayında keçirilsin.

2. Azərbaycan SSR Nazirlər Sovetinə tapşırılsın ki, Vilayət Partiya Komitəsi və Naxçıvan MSSR Nazirlər Soveti ilə birlikdə muxtar respublika iqtisadiyyatının və mədəniyyətinin inkişaf etdirilməsi məsələlərinə baxsın və təklifləri Azərbaycan KP Mərkəzi Komitəsinə təqdim etsin.

3. Azərbaycan SSR Maliyyə Nazirliyinə tapşırılsın ki, 1974-cü ildə muxtar respublika şəhər və rayonlarının abadlığına əlavə vəsaitin ayrılması haqqında məsələyə, eləcə də yubiley təntənəsi və digər tədbirlərin keçirilməsi ilə əlaqədar xərclər layihəsinə baxsın.

4. Nəşriyyat, poliqrafiya və kitab nəşri üzrə aşağıdakı işlər Azərbaycan SSR Nazirlər Soveti Dövlət Komitəsində, Azərbaycan SSR Elmlər Akademiyasında və Azərbaycan Kommunist partiyası MK nəzdində Partiya Tarix İnstitutunda hazırlansın və yubiley üçün göndərilsin:

- Tarixə, muxtar respublikanın təsərrüfat və mədəniyyət quruculuğunda nail olduğu uğurlara həsr olunan “Naxçıvan MSSR-50 il” kitabı, hər birində 5 çap vərəqi ilə Azərbaycan və rus dillərində;
- “Almanax” – Naxçıvan yazıçılarının əsərlərinin məcmuəsi: Azərbaycan dilində (10 çap vərəqi), rus dilində (5 çap vərəqi);
- Muxtar respublika yazıçılarının kitabları, Azərbaycan dilində 8 adla, 40 çap vərəqi;
- Nəğmələrin məcmuəsi – muxtar respublika şairlərinin dostluq və qardaşlıq haqqında, əmək insanları haqqında şeirləri, Azərbaycan dilində 5 çap vərəqi;
- Şərur rayonunun “Sovet” qabaqcıl kolxozu haqqında xülasə, hər birində 6 çap vərəqi ilə Azərbaycan və rus dillərində;
- “Naxçıvan MSSR – 50: sovet illəri ərzində” foto-albom, hər birində 3 çap vərəqi ilə Azərbaycan və rus dillərində, eləcə də muxtar respublika haqqında açıqca.

5. Azərbaycan SSR Mədəniyyət Nazirliyi döş nişanı və “Naxçıvan MSSR – 50 il” yubiley medalını hazırlasın.

6. Azərbaycan SSR Nazirlər Soveti və Kinematoqrafiya üzrə Dövlət Komitəsinə tapşırılsın ki, Naxçıvan MSSR-ə həsr olunan sənədli film hazırlasın.

7. Naxçıvan və Dağlıq Qarabağ vilayət komitələrinə, Bakı və Gəncə şəhər partiya komitələrinə, Azərbaycan SSR Mədəniyyət Nazirliyinə tapşırılsın ki, 1974-cü ildə Bakı, DQMV və Gəncə şəhərlərində Naxçıvan MSSR-in ədəbiyyat və incəsənət günləri keçirsin.

**Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi:** **HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 28 avqust 1973-cü il

**Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi Bürosunun 25 iyul 1973-cü il tarixdə keçirilən iclasının 63 nömrəli protokolundan**

**ÇIXARIŞ**

**Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının 50 illiyinə hazırlıq haqqında**

1.Naxçıvan MSSR-in 50 illiyinə hazırlığa dair tədbirlər planı təsdiq olunsun (əlavə olunur).

2.Naxçıvan şəhər komitəsi və Azərbaycan KP rayon komitələrinə, şəhər və rayon xalq deputatlar soveti icraiyyə komitələrinə, Azərbaycan LKGİ Naxçıvan Vilayət Komitəsinə, nazirliklərə və idarələrə tapşırılsın ki, göstərilən tədbirlər müzakirə olunsun, onların yerinə yetirilməsi təmin edilsin. 1973-cü il sentyabrın 10-da və dekabrın 10-da görülən işlər haqqında Vilayət Partiya Komitəsinə məlumat verilsin.

3.Naxçıvan MSSR-in 50 illiyinin hazırlanması və keçirilməsi ilə bağlı aşağıdakı tərkibdən ibarət komissiya yaradılsın:

| | |
|---|---|
| A.A.Hüseynov | -Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin birinci katibi (sədr) |
| M.İ.Radayev | -Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin ikinci katibi |
| Y.M.Nəbiyev | -Naxçıvan MSSR Nazirlər Sovetinin sədri |
| S.A.Əliyeva | -Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin sədri |
| R.S.Qazıbəyov | -Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin katibi |
| A.M.Seyidov | -Naxçıvan MSSR Nazirlər Soveti sədrinin birinci müavini |
| V.R.Cəlilov | -Naxçıvan MSSR Nazirlər Soveti sədrinin müavini |
| V.H.Hüseynov | -Azərbaycan LKGİ Naxçıvan Vilayət Komitəsinin birinci katibi |

| | |
|---|---|
| V.H.Bağırov | -"Şərq qapısı" vilayət qəzetinin redaktoru |
| İ.V.Kryajev | -91111 nömrəli hərbi hissənin komandiri |
| V.P.Kaledin | -Naxçıvan Sərhəd Dəstəsinin rəisi |
| Ə.M.Bayramov | -Naxçıvan şəhər Xalq Deputatlar Soveti İcraiyyə Komitəsinin sədri |
| İ.S.Ələkbərov | -Azərbaycan KP Naxçıvan şəhər Komitəsinin birinci katibi |
| H.M.İbrahimov | -Naxçıvan MSSR mədəniyyət naziri |

4. C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin, Naxçıvan MSSR Ali Soveti və Nazirlər Sovetinin Naxçıvan MSSR-in 50 illiyinə həsr olunmuş təntənəli iclası keçirilsin. Məruzəçi Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin katibi A.A.Hüseynov təsdiq olunsun.

5. Naxçıvan MSSR mədəniyyət nazirinə tapşırılsın ki, qısa müddət ərzində Dövlət Teatrının, Dövlət Ansamblının, "Yallı" ansamblının və incəsənət özfəaliyyət kollektivlərinin repertuarlarını müəyyənləşdirsin.

6. Naxçıvan MSSR Nazirlər Sovetinə tapşırılsın ki:

- yubiley gününə qədər C.Məmmədquluzadə adına Dövlət Musiqili Dram Teatrının, tarix və ədəbiyyat muzeylərinin əsaslı təmirinin başa çatdırılmasına dair konkret tədbirlər görsün;

-Sərgi pavilyonunun tikintisi başa çatdırılsın;

-Naxçıvan MSSR-in 50 illik yubileyinin keçirilməsi ilə bağlı vəzifələr üçün vəsait ayrılsın.

**Azərbaycan KP Naxçıvan Vilayət**
**Komitəsinin katibi:** **A.HÜSEYNOV**

*Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi Bürosunun 25 iyul 1973-cü il tarixdə keçirilən iclasının 63 nömrəli protokolu ilə təsdiq edilmişdir.*

## Naxçıvan MSSR-in 50 illik yubileyi ilə bağlı

## TƏDBİRLƏR PLANI

| № | Tədbirlərin adı | İcra müddəti | İcraya məsul |
|---|---|---|---|
| 1. | Müəssisələrdə, zavodlarda, fabriklərdə, kolxozlarda, sovxozlarda, təşkilatlarda, təhsil müəssisələrində Naxçıvan MSSR-in 50 illiyinə həsr edilmiş mühazirələrin, məruzələrin oxunması və müsahibələrin verilməsinin təşkil edilməsi | İyul, 1973-cü il<br>Yanvar, 1974-cü il | Vilayət Partiya Komitəsinin təbliğat və təşviqat şöbəsi, Azərbaycan KP şəhər və rayon komitələri |
| 2. | Mühazirələrin, məruzələrin və müsahibələrin nümunəvi formasının hazırlanması və partiya komitələrinə göndərilməsi | 1973-cü il avqustun 1-dək | Vilayət Partiya Komitəsinin təbliğat və təşviqat şöbəsi |
| 3. | Plan və öhdəliklərin vaxtından əvvəl yerinə yetirilməsi üçün muxtar respublikanın müəssisələrində, kolxozlarda və sovxozlarda Naxçıvan MSSR-in 50 illiyi şərəfinə yarışın təşkil edilməsi | İyul, 1973-cü il | Azərbaycan KP Vilayət Komitəsi və rayon komitələri, Vilayət Partiya Komitələrinin kənd təsərrüfatı, sənaye və nəqliyyat şöbələri |
| 4. | Rus və Azərbaycan dillərində fotoşəkillərdən ibarət "Naxçıvan MSSR 50 il" kitabının hazırlanması | 1973-cü ilin dekabr ayına qədər | Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin katibliyi |

| № | Tədbirlərin adı | İcra müddəti | İcraya məsul |
|---|---|---|---|
| 5. | Naxçıvan yazıçılarının əsərlərindən ibarət toplunun (Azərbaycan və rus dillərində) nəşr olunması:<br><br>Xankəndi, Gəncə və Bakı şəhərində Naxçıvan MSSR ədəbiyyat və incəsənət günlərinin keçirilməsi | 1973-cü il dekabrın 1-dək<br><br>1973- cü il sentyabrın 1-dək | Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi, Naxçıvan MSSR Mədəniyyət Nazirliyi, "Bilik" cəmiyyətinin Naxçıvan şöbəsi, Azərbaycan Yazıçılar İttifaqı Naxçıvan şöbəsi, |
| 6. | Bakı şəhərində keçiriləcək Naxçıvan MSSR incəsənət və ədəbiyyat günlərinin planının hazırlanması və Vilayət Partiya Komitəsinin Bürosunda baxılması | 1973- cü il sentyabrın 1-dək | Vilayət Partiya Komitəsinin təbliğat və təşviqat şöbəsi, Naxçıvan MSSR Mədəniyyət Nazirliyi, Yazıçılar İttifaqı |
| 7. | Muxtar respublika ziyalılarının ən yaxşı nümayəndələrini, sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat qabaqcıllarını Azərbaycan SSR Ali Soveti və Naxçıvan MSSR Ali Soveti Rəyasət heyətinin fəxri fərmanı ilə təltif olunmağa təqdim edilməsi | 1973-cü il dekabrın 1-dək | Azərbaycan KP Naxçıvan Vilayət Partiya Komitəsinin şöbələri, şəhər və rayon partiya komitələri |
| 8. | Müəssisələrdə, kolxozlarda, sovxozlarda, mədəni-maarif müəssisələrində Naxçıvan MSSR-in 50 illiyinə həsr olunmuş stendlər, sərgilər, fotomontajlar təşkil edilməsi | 1973-cü il oktyabrın 1-dək | Mədəniyyət Nazirliyi, şəhər və rayon partiya komitələri, ilk partiya təşkilatları |

| № | Tədbirlərin adı | İcra müddəti | İcraya məsul |
|---|---|---|---|
| 9. | Respublika fotosərgisi və diaqramlarının təşkil edilməsi: a) "Naxçıvan MSSR 50 il" mövzusunda Tarix Muzeyində b) "Naxçıvan MSSR-də xalq maarifinin inkişafı" mövzusunda maarif işçiləri evində c) "Naxçıvan MSSR-də Səhiyyə" sanitar-maarif evində | 1973-cü il fevralın 1-dək | Vilayət Partiya Komitəsinin təbliğat və təşviqat şöbəsi, Naxçıvan MSSR Maarif, Mədəniyyət və Səhiyyə Nazirlikləri |
| 10. | Sənaye müəssisələrindən birinə, bir kolxoza və bir məktəbə "Naxçıvan MSSR-in 50 illiyi" adının verilməsi | 1973-cü il fevralın 1-dək | Naxçıvan MSSR Nazirlər Soveti, şəhər və rayon icraiyyə komitələri |
| 11. | Bütün şəhər, rayon mərkəzlərində, qəsəbə, kənd, idarə və müəssisələrdə, kolxoz və sovxozlarda abadlıq və sanitariya üzrə aylıqların keçirilməsi | yanvar-fevral 1974-cü il | Şəhər, rayon, qəsəbə, kənd xalq deputatlar soveti icraiyyə komitələri, Səhiyyə Nazirliyi |
| 12. | "Şərq qapısı" və rayon qəzetlərində vaxtaşırı Naxçıvan MSSR-in 50 illiyinə həsr olunan məqalələrin dərc edilməsi, yubiley günündə isə qəzetin xüsusi nömrəsinin buraxılması | 1973-cü ilin iyul ayından 1974-cü ilin fevral ayına qədər | "Şərq qapısı" qəzeti, rayon qəzetlərinin redaksiyaları |
| 13. | Televiziya və radio ilə 50 il ərzində muxtar respublikanın nailiyyətləri haqqında, sənaye, kolxoz istehsalatı qabaqcılları haqqında xüsusi verilişlərin təşkil edilməsi | 1973-cü ilin iyulundan 1974-cü ilin fevral ayına qədər | Naxçıvan MSSR Nazirlər Sovetinin Televiziya və Radio Verilişləri üzrə Dövlət Komitəsi |
| 14. | Muxtar respublikanın 50 illiyinə həsr edilmiş bədii özfəaliyyət kollektivlərinin çıxışları, estafetlər, idman oyunları, yarışlar keçirmək üçün konkret planın hazırlanması | Yanvar, 1974-cü il | Naxçıvan MSSR Mədəniyyət Nazirliyi, Azərbaycan LKGİ Vilayət Komitəsi, Naxçıvan MSSR Nazirlər Soveti nəzdində İdman Komitəsi |

| № | Tədbirlərin adı | İcra müddəti | İcraya məsul |
|---|---|---|---|
| 15. | Yubiley gününə qədər İttifaq binasının, dəmir beton məmulatları zavodunun, Sədərək sovxozunda şərabçılıq zavodunun və M.S.Ordubadi adına sovxozda şərab zavodunun, Culfa rayon Yaycı kəndində 1000 yerlik məktəbin, ümumi sahəsi 32 min metr olan yaşayış evlərinin tikintisinin başa çatdırılması və istismara verilməsi, Şərur rayonu və Culfa şəhərinin kanalizasiya, eləcə də Naxçıvan şəhərində kanalizasiya sisteminin bərpa olunmasının başa çatdırılması | 1974-cü il dekabrın 31-dək | Naxçıvan MSSR Nazirlər Soveti, Kommunal Təsərrüfat Nazirliyi, Naxçıvan Xalq Deputatlar Soveti şəhər və rayon icraiyyə komitələri, 5 №-li Tikinti Tresti |
| 16. | Muxtar respublikanın 50 illiyi ilə əlaqədar şəhər və rayon mərkəzlərinin abadlaşdırılması ilə bağlı şəhər və rayon icraiyyə komitələri tərəfindən əlavə tədbirlərin həyata keçirilməsi | 1974-cü il avqustun 15-dək | Vilayət Partiya Komitəsinin sənaye və nəqliyyat şöbəsi, şəhər və rayon xalq deputatlar soveti icraiyyə komitələri |
| 17. | Yubiley gününə qədər üzərində "Naxçıvan MSSR 50 il" yazısı olan bloknotların, qovluqların, şokalad qutularının, stolüstü yubiley medallarının, döş nişanlarının hazırlanması, eləcə də Naxçıvan Şərab Trestinin məmulatlarının üzərində "Naxçıvan MSSR 50 il" etiketlərinin yazılmasının təşkil edilməsi | 1974-cü il yanvarın 1-dək | Vilayət Partiya Komitəsinin təbliğat və təşviqat, sənaye və nəqliyyat şöbələri |

| № | Tədbirlərin adı | İcra müddəti | İcraya məsul |
|---|---|---|---|
| 18. | Naxçıvan şəhərində SSRİ xalqlarının dostluğuna həsr edilmiş müşavirənin keçirilməsi | Yanvar, 1974-cü il | Vilayət Partiya Komitəsinin təbliğat və təşviqat şöbəsi |
| 19. | Bütün rayon mərkəzlərində Naxçıvan MSSR-in 50 illiyinə həsr olunan təntənəli yığıncaqların keçirilməsi | Yanvar, 1974-cü il | Vilayət Partiya Komitəsinin təbliğat və təşviqat şöbəsi |
| 20. | Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi, Ali Soveti və Naxçıvan MSSR Nazirlər Soveti tərəfindən yubiley iclasının keçirilməsi. Yubiley yığıncağında iştirak etmək üçün qardaş respublikaların və vilayətlərin nümayəndələrinin dəvət edilməsi, yubileyə həsr edilmiş yığıncağın iştirakçıları üçün böyük bayram konsertinin hazırlanması və Azərbaycan SSR-nin görkəmli incəsənət ustalarının dəvət edilməsi | 9 fevral 1974-cü il | Vilayət partiya komitəsinin katibliyi, Naxçıvan MSSR Nazirlər Soveti və Ali Soveti Rəyasət heyəti, Naxçıvan MSSR Mədəniyyət Nazirliyi |
| 21. | Yubiley günlərində Naxçıvan şəhərinin zəhmətkeşləri və Naxçıvan qarnizon hissəsinin nümayəndələrinin birgə nümayiş və mitinqinin keçirilməsi | Fevral, 1974-cü il | Təbliğat və təşviqat şöbəsi, İdman Komitəsi, respublikanın Hərbi Komissarlığı |

**Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi Bürosunun 2 sentyabr 1974-cü il tarixli iclasının 14 nömrəli protokolundan**

## ÇIXARIŞ

**Bakı, Gəncə və Dağlıq Qarabağ Muxtar Vilayətinin şəhərlərində Naxçıvan günlərinin keçirilməsi haqqında**

1."Naxçıvan MSSR-nin 50 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan KP MK-nın 1973-ci il 28 avqust tarixli qərarına uyğun olaraq Bakı, Gəncə və Dağlıq Qarabağ Muxtar Vilayətinin şəhərlərində Naxçıvan günləri keçirilsin.

2. Bakı, Gəncə və Dağlıq Qarabağ Muxtar Vilayətinin şəhərlərində Naxçıvan günlərinin keçirilməsində iştirak etmək üçün nümayəndə heyətinin tərkibi təsdiq edilsin.

Azərbaycanın KP Naxçıvan Vilayət Komitəsinin katibi R.S.Qazıbəyov nümayəndə heyətinin rəhbəri seçilsin.

**Azərbaycanın KP Naxçıvan**
**Vilayət Komitəsinin katibi: A.HÜSEYNOV**

**Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Xalqlar dostluğu ordeni ilə təltif edilməsi haqqında**

## SSRİ ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN

## F Ə R M A N I

Sovet xalqlarının mehriban dostluğunun və əməkdaşlığının möhkəmləndirilməsində Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin zəhmətkeşlərinin böyük xidmətlərinə, iqtisadi, ictimai-siyasi və mədəni quruculuqda böyük müvəffəqiyyətlərinə görə və Sovet Sosialist Respublikaları İttifaqının 50 illiyi münasibətilə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Xalqlar dostluğu ordeni ilə təltif edilsin.

**SSRİ Ali Soveti Rəyasət**
**Heyətinin Sədri: N. PODQORNI**

**SSRİ Ali Soveti Rəyasət**
**Heyətinin Katibi: M.GEORQADZE**

*Moskva, Kreml*
*29 dekabr 1972-ci il*

## Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının bayrağında Xalqlar dostluğu ordeni

### Naxçıvan Vilayət Partiya Komitəsinin və Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin təntənəli iclası

Sovet xalqlarının mehriban dostluğunun və əməkdaşlığının möhkəmləndirilməsində böyük xidmətlərinə, iqtisadi, ictimai-siyasi və mədəni quruculuqda böyük müvəffəqiyyətlərinə görə və Sovet Sosialist Respublikası İttifaqının əlli illiyi münasibətilə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Xalqlar dostluğu ordeni ilə təltif edilmişdir. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına Vətənin yüksək mükafatının təqdim edilməsi münasibətilə fevralın 21-də C.Məmmədquluzadə adına Musiqili Dram Teatrında Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin və Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin birgə təntənəli iclası oldu.

Sovet İKP MK üzvü, Azərbaycan KP MK-nın birinci katibi H.Ə.Əliyev, Naxçıvan Vilayət Partiya Komitəsinin birinci katibi A.A.Hüseynov, Sovet İKP MK-nın bölmə müdiri L.N.Puqaçov, Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Soveti Rəyasət Heyətinin sədri S.A.Əliyeva, Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Nazirlər Sovetinin sədri J.M.Nəbiyev, Naxçıvan Vilayət Partiya Komitəsi bürosunun üzvləri və büro üzvlüyünə namizədlər, Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Soveti Rəyasət Heyətinin üzvləri, istehsalat qabaqcılları, mədəniyyət xadimləri təntənəli iclasın rəyasət heyətində əyləşmişdilər.

İclası Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Soveti Rəyasət heyətinin sədri S.A.Əliyeva açdı.

Salona toplaşanlar tərəfindən səmimi qarşılanan Sovet İKP MK üzvü, Azərbaycan KP MK-nın birinci katibi H.Ə.Əliyevə söz verildi.

Sonra Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin birinci katibi A.A.Hüseynov çıxış etdi.

Muxtar respublikanın fəhlələri adından Naxçıvan tütün fermentasiya zavodunun ustası Z.M.Qasımov, kolxozçular adından Naxçıvan rayonundakı kolxozun pambıqçılar manqabaşçısı L.M.Babayeva, ziyalılar adından Ordubad şəhərindəki 1 nömrəli məktəbin müəllimi, Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin deputatı Ə.H.İsgəndərova, inşaatçılar adından Arpaçay Su Tikintisi İdarəsinin fəhləsi İ.K.Neypokoyev, tələbələr adından Naxçıvan Pedaqoji İnstitutunun tələbəsi H.Ş.Möhsünov çıxış etdi.



*Naxçıvan MSSR-ə Xalqlar dostluğu ordeninin verilməsi münasibətilə təntənəli iclasın rəyasət heyəti*
*21 fevral 1974-cü il*

Çıxışlardan sonra Naxçıvanın gəncləri təbil və şeypurların sədaları altında salona daxil oldular. Salonda əyləşənlər onları alqışlarla qarşıladılar. Onlar öz babalarını, ata-analarını, böyük qardaş və bacılarını yüksək mükafat münasibətilə şeirlərlə səmimi təbrik etdilər.

Təntənəli iclas bağlı elan olundu. Sonra iclasın iştirakçıları üçün böyük bayram konserti verildi. Konsertdə Bakının və Naxçıvanın incəsənət ustaları, Naxçıvan bədii özfəaliyyət kollektivləri iştirak etdilər.

*"Şərq qapısı" qəzeti,*
*22 fevral 1974-cü il*

## Naxçıvan Vilayət Partiya Komitəsinin və Naxçıvan MSSR Ali Sovetinin birgə təntənəli iclasında Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin

## ÇIXIŞI

Əziz yoldaşlar!

Bu gün Naxçıvan Muxtar Sovet Sosialist Respublikası və bütün Azərbaycan zəhmətkeşlərinin həyatında böyük və fərəhli bir gündür. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına Vətənin yüksək mükafatı – Xalqlar dostluğu ordeni təqdim edilir.

Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin, Sovet Sosialist Respublikaları İttifaqı Ali Sovetinin Rəyasət Heyətinin və Nazirlər Soveti adından, Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi, Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti və Nazirlər Sovetinin adından sizi və sizin şəxsinizdə respublikanın bütün zəhmətkeşlərini yüksək və layiqli mükafat münasibətilə səmimi-qəlbdən təbrik edim.



*Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev çıxış edərkən*
*21 fevral 1974-cü il*

Yoldaşlar! Bundan sonra Naxçıvan Muxtar Respublikasının şanlı bayrağında parlayacaq Xalqlar dostluğu ordeni SSRİ-nin yarıməsrlik yubileyinin bayram edildiyi günlərdə təsis olunmuşdur. Xalqlar dostluğu ordeni proletar beynəlmiləlçiliyi prinsipləri ilə sıx birləşmiş xalqların həqiqi qardaşlığına, yoldaşcasına əməkdaşlığına və qarşılıqlı yardımına əsaslanan millətlərarası münasibətlərin yeni növünün yaranmasının rəmzidir.

Xalqların mehriban dostluğunun möhkəmləndirilməsinə, ümumittifaq iqtisadiyyatının yaranmasına və müvəffəqiyyətlə inkişaf etməsinə, əsaslı ictimai-siyasi dəyişikliklərin həyata keçirilməsinə ölkəmizin bütün millətləri və xalqları, hər bir müttəfiq, muxtar respublika, vilayət kömək etmişdir. Naxçıvan Muxtar Sovet Sosialist Respublikası zəhmətkeşlərinin də bu böyük işdə sanballı payı vardır.

Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Xalqlar dostluğu ordeni ilə təltif edilməsi xalqların dostluq və qardaşlığının möhkəmləndirilməsində respublika fəhlələrinin, kolxozçularının, ziyalılarının xidmətinə verilən yüksək və layiqli qiymətdir.

Naxçıvan Muxtar Respublikasının zəhmətkeşləri bütün Azərbaycan xalqı ilə birlikdə şanlı inkişaf yolu keçmiş, iqtisadi, siyasi və mədəni tərəqqinin yüksək zirvələrinə qalxmışlar.

Bütün ölkə ilə birlikdə Naxçıvan da Böyük Vətən müharibəsi cəbhələrində Oktyabrın nailiyyətlərini qorumuşdur. Respublikanın minlərlə oğul və qızı döyüş meydanlarında böyük igidlik və qəhrəmanlıqlar göstərmişdir. Sizin şanlı həmyerlilərinizin – Sovet İttifaqı Qəhrəmanları Qəzənfər Əkbərovun, Abbas Quliyevin, Nəcəfqulu Rəfiyevin hünərləri xatirələrdə əbədi yaşayacaqdır. Buhenvald qəhrəmanı Əkbər Ağayev alovlu sovet vətənpərvərliyi və beynəlmiləlçiliyi nümunələri göstərmişdir. Sovet partizanları qrupunun rəhbəri Əli Babayev faşizmə qarşı mübarizədə göstərdiyi mərdlik və igidliyə görə İtaliyanın yüksək hərbi mükafatına layiq görülmüşdür.

Naxçıvan torpağında əsaslı dəyişikliklər həyata keçirilmiş, iri sənaye müəssisələri tikilmiş, kolxoz və sovxozlar yaradılmış və möhkəmlənmiş, mədəni inqilab olmuşdur.

İndi iki gündə Naxçıvanda buraxılan məhsul bütün 1913-cü il ərzində istehsal edildiyi qədərdir. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının təşkil edildiyi 1924-cü ildəkinə nisbətən sənaye istehsalının həcmi 150 dəfədən çox artmışdır. Keçən il respublikada elektrik enerjisi istehsalı müharibədən əvvəlki 1940-cı ildəkindən 183 dəfə çox olmuşdur. Mahlıc, ipək, konserv istehsalı xeyli artmışdır.

Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının kənd təsərrüfatında böyük dəyişikliklər əmələ gəlmişdir. İrriqasiya sayəsində indi əkin sahəsinin 80 faizdən çoxunu suvarılan torpaqlar təşkil edir. Kolxoz və sovxozlar əla kənd təsərrüfatı texnikası ilə təchiz olunmuşlar. Naxçıvana göndərilmiş ilk traktor 1925-ci ildə respublika torpağında ilk şırım açmışdı. İndi isə Naxçıvan tarlalarında 1600-dən çox traktor, kombayn, pambıqyığan maşın və yük avtomobili, yüzlərlə başqa kənd təsərrüfatı maşını işləyir.

Naxçıvan diyarının kənd təsərrüfatı çoxsahəli olmuşdur. Kənd təsərrüfatı bitkilərinin və heyvandarlığın məhsuldarlığı xeyli yüksəlmişdir. Bunun əsasında kənd təsərrüfatı məhsulları istehsalı və dövlətə satışı getdikcə artır.

Naxçıvan Muxtar Sovet Sosialist Respublikasında əsaslı iqtisadi dəyişikliklər zəminində əhalinin ictimai tərkibində mühüm dəyişikliklər baş vermişdir. Bu illər ərzində Azərbaycan fəhlə sinfinin tərkib hissəsi olan Naxçıvan fəhlə sinfi təşəkkül tapıb böyümüşdür. İndi respublikada fəhlə və qulluqçuların sayı 1940-cı ildəkindən beş dəfə çoxdur. Əmək coşğunluğu, yüksək siyasi şüurluluq, vətənpərvərlik kimi keyfiyyətlər Azərbaycanın bütün fəhlə sinfi kimi, Naxçıvan fəhlələrinə də xasdır. Bu yüksək keyfiyyətlər kolxozçuların, yeni kəndin yeni insanlarının da fərqləndirici cəhətləridir.

Respublikada xalq ziyalılarının - müəllimlərin və həkimlərin, mühəndislərin və texniklərin, kənd təsərrüfatı mütəxəssislərinin, alimlərin, ədəbiyyat və incəsənət xadimlərinin böyük bir dəstəsi yetişmişdir.

Bütün Azərbaycanda olduğu kimi, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasında da qadınların azadlığa çıxması, azərbaycanlı qadınların yeni cəmiyyətin azad, xoşbəxt qurucusuna çevrilməsidir. İndi Naxçıvanın on minlərlə qadını sənayedə və kənd təsərrüfatında, təhsil müəssisələrində, səhiyyə və mədəniyyət ocaqlarında səmərəli çalışır.

İnqilabdan əvvəl Naxçıvan diyarında 20 çarpayılıq bir xəstəxana, 5 həkim, 8 feldşer və 5 mamaça var idi. İndi isə respublikada onlarla müalicə-profilaktika və sanitariya-epidemioloji müəssisə, o cümlədən 2 min çarpayılıq xəstəxanalar, təqribən 300 nəfər həkim, 1600 nəfərə qədər orta ixtisas təhsilli tibb işçisi vardır.

Azərbaycan SSR Elmlər Akademiyası Naxçıvan filialının təşkil edilməsi, Naxçıvan Pedaqoji İnstitutunun yaradılması Naxçıvan Respublikasının mədəni həyatında mühüm hadisə olmuşdur.

Respublikada bütün təhsil növləri ilə 70 mindən çox adam əhatə edilmişdir, yəni əhalinin hər üç nəfərindən biri təhsil alır. 220-dən çox gündüz və axşam ümumtəhsil məktəbi, politexnik və kənd təsərrüfatı texnikumları, tibb məktəbi müvəffəqiyyətlə işləyir.

Bu təntənəli gündə biz yeni dünya qurucularının bir neçə nəslini yetişdirib tərbiyə etmiş olan Naxçıvan məktəblərinin, onun diqqətəlayiq müəllimlərinin böyük xidmətlərini qeyd etmək istəyirik. Biz bütün həyatını, istedadını və bacarığını uşaqlara təhsil vermək kimi nəcib bir işə sərf etmiş qocaman müəllimlərdən Nazlı xanım Tahirovanın, Mircəfər Mirişlinin, Abbas Əsgərovun, Əli Qəmbərlinin, Tovuz Sadıqzadənin, Ramazan Əliyevin, Zülfüqar Hüseynovun, Şahhüseyn İsmayılovun və başqalarının adlarını dərin ehtiram və minnətdarlıq hissi ilə çəkirik. Məhz onların əməyi ilə minlərlə xalq təsərrüfatı və mədəniyyət işçiləri yetişdirilmişdir. Bu işçilər isə Naxçıvanı Vətənimizin Şərq hüdudlarında çiçəklənən diyara çevirmişlər.

Naxçıvanın bir çox oğul və qızları Bakıda və Azərbaycanın başqa şəhərlərində elm və mədəniyyət sahəsində səmərəli fəaliyyət göstərirlər. Sizin həmyerliləriniz Cəlil Məmmədquluzadənin, Məmməd Səid Ordubadinin, Hüseyn Cavidin, Yusif Məmmədəliyevin adları ilə bütün respublika fəxr edir. Azərbaycan ədəbiyyatının və mədəniyyətinin inkişafında onların xidməti olduqca böyükdür.

Sizin respublikanızın fəhlə sinfinin, kolxozçu kəndlilərinin, ziyalılarının xidmətləri böyükdür. Naxçıvan Muxtar Sovet Sosialist Respublika zəhmətkeşlərinin 21 nəfər ən yaxşı nümayəndəsi Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür. Naxçıvanın minlərlə oğul və qızı Vətənin orden və medalları ilə təltif edilmişdir. Respublika ziyalılarının ən yaxşı nümayəndələrinə fəxri adlar verilmişdir.

Naxçıvan duz mədəninin qazmaçısı, SSRİ Ali Sovetinin deputatı Sevindik Novruzov, Ordubad baramaaçan fabrikinin ustası Fatma Ağayeva, Culfa lokomotiv deposunun maşinisti Əbülfəz Cəfərov, Arpaçay Su Tikintisi İdarəsinin elektrik-çilingəri Aleksandr Birjukov, Naxçıvan tütün fermentasiya zavodunun fəhləsi Cavanşir Hüseynov, aqronom Məşdi Fərəcov, müəllimlərdən Adilə Mirişli və Vera Dankeviç, həkimlərdən Mehdi Bağırov, habelə bir çox başqaları doğma respublikanın və bütün ölkənin rifahı naminə yüksək məhsullar, fədakar əmək nümunəsi göstərirlər.

Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi, Azərbaycan SSRİ Ali Sovetinin Rəyasət Heyəti və Nazirlər Soveti adından Naxçıvanın bütün şanlı əməkçilərinə səmimi təşəkkürümüzü bildirir və əziz yoldaşlar, sizə yeni böyük istehsalat müvəffəqiyyətləri, cansağlığı və şəxsi səadət arzulayıram.

Yoldaşlar! Bütün Azərbaycan zəhmətkeşləri kimi, Naxçıvan Muxtar Sovet Sosialist Respublika zəhmətkeşləri də partiyanın XXIV qurultayının tarixi qərarlarını həyata keçirmək uğrunda mübarizədə yüksək siyasi şüurluluq və is-

tehsalat fəallığı göstərirlər.

Əziz yoldaşlar, icazə verin, Sovet İKP MK-nin, SSRİ Nazirlər Sovetinin Qırmızı bayrağı ilə muxtar respublikanın təltif edilməsi münasibətilə sizi səmimi-qəlbdən təbrik edim və yeni əmək müvəffəqiyyətləri arzulayım.

Cari beşillikdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının kənd təsərrüfatı əməkçiləri də yaxşı nəticələr əldə etmişlər. 1971-1973-cü illərdə muxtar respublikada kənd təsərrüfatı məhsulu istehsalı əvvəlki üç ilə nisbətən artmışdır. Kolxozçuların, sovxoz fəhlələrinin və kənd təsərrüfatı müəssisələrinin fədakar əməyi nəticəsində taxıl, pambıq, meyvə, barama, tərəvəz, tütün istehsalına və dövlətə satışına dair planlar artıqlaması ilə yerinə yetirilmişdir. Bir çox kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı artmış, mal-qaranın məhsuldarlığı yüksəlmiş, xüsusən süd sağımı çoxalmışdır.

1972-1973-cü illərin qış dövründə heyvandarlıq məhsulları istehsalının və tədarükünün artırılması uğrunda yarışda müvəffəqiyyətlərinə görə Ordubad rayonu, həmin rayondakı Həzi Aslanov adına kolxoz, Şərur rayonunun Frunze adına kolxozu, Şahbuz mal-qara kökəltmə məntəqəsi Azərbaycan KP MK-nın, Azərbaycan SSRİ Nazirlər Sovetinin, AHİŞ-in Qırmızı bayraqları ilə, Şərur rayonundakı SSRİ-nin 50 illiyi adına kolxoz, Ordubad rayonundakı M.F.Axundov adına kolxoz, Naxçıvan Kənd Təsərrüfatı Texnikumu isə SSRİ Kənd Təsərrüfatı Nazirliyinin Kənd Təsərrüfatı və Tədarük Fəhlə Qulluqçuları Həmkarlar İttifaqı Mərkəzi Komitəsinin Qırmızı bayraqları ilə təltif olunmuşlar.

İlin yekunlarına görə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının kənd təsərrüfatı işçilərindən 166 nəfəri, sənaye və tikinti işçilərindən 50 nəfəri SSRİ orden və medalları ilə təltif edilmişdir.

Biz təltif olunmuş bütün istehsalat qabaqcıllarını, kənd təsərrüfatı işçilərini ürəkdən təbrik edirik və əminik ki, onlar bundan sonra da daha yaxşı, daha məhsuldar işləyəcəklər.

Bu il elektrotexnika, kərpic zavodları, dəyirman kombinatı, quşçuluq fabriki, "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının 40 illiyi" sovxozunda şərab zavodu, habelə kənd təsərrüfatı obyektləri, çoxlu yaşayış evi, məktəblər və məktəbəqədər uşaq tərbiyə müəssisələri üçün binalar, kommunal, məişət və ticarət müəssisələri istifadəyə verilməlidir.

Arpaçay dəryacasının yaradılması çox böyük əhəmiyyətə malikdir. Arpaçay dəryacası istifadəyə verildikdən sonra Şərur rayonunun və qismən Naxçıvan rayonunun kənd təsərrüfatının su təchizatı problemi həll edilərək, 46 min hektar torpağa su veriləcəkdir ki, bu da əkin sahələrinin əslində iki dəfə genişləndirilməsi deməkdir.

İnşaatçılar işlərin təşkilini qətiyyətlə yaxşılaşdırmalı, qüvvə və vəsaiti 1974-1975-ci illərin buraxılış obyektlərində cəmləşdirməli, boşdayanma hallarının aradan qaldırılmasına, tikinti texnikasından səmərəli istifadə edilməsinə nail olmalıdırlar. Eyni zamanda tikintilərin inşaat materialları ilə təchiz olunmasını yaxşılaşdırmaq, vaxtında maliyyə vəsaiti ayırmaq, quraşdırma işləri üçün avadanlıq göndərmək lazımdır.

Kənd təsərrüfatı əməkçiləri qarşısında yeni vəzifələr durur. Kənd təsərrüfatı məhsullarının əksəriyyətinin istehsalını xeyli artırmaq, dövlətə üzüm satışının 30 faiz, tütün satışının 26 faiz, ət və yumurta satışının 11 faiz, süd satışının 10 faiz artırılmasına nail olmaq lazımdır.

Yaz tarla işlərinə vaxtında və keyfiyyətlə hazırlaşmaq, texnikanın, təmirin, toxumun seçilib ayrılmasını, gübrə tədarük edilməsini, suvarma şəbəkələrinin təmizlənməsini sürətləndirmək lazımdır. Yaz əkininin tez və keyfiyyətlə keçirilməsi üçün hər cür tədbir görülməli, sonra isə əkinlərin becərilməsi və məhsul yığımı işlərinin də belə səviyyədə görülməsi təmin edilməlidir.

İstehsalın səmərəsini yüksəltmək, elmi-texniki tərəqqini tətbiq etmək, istehsalın təşkilini və idarə olunmasını təkmilləşdirmək sahəsində qarşıda xüsusilə böyük vəzifələr durur. Əmək məhsuldarlığının yüksəldilməsinə əzmlə nail olmaq, məhsulun keyfiyyətinin, əkinçilikdə və heyvandarlıqda məhsuldarlıq göstəricilərinin yaxşılaşdırılması uğrunda ardıcıl mübarizə aparmaq lazımdır.

Yanvar ayında və fevralın birinci yarısında ən yaxşı istehsalat kollektivlərinin, bir çox qabaqcılların işinin nəticələri göstərir ki, Naxçıvan Muxtar Sovet Sosialist Respublika zəhmətkeşləri öz vədlərinə əməl edirlər. Naxçıvan tütün fermentasiya zavodunun kollektivi aylıq tapşırığın yerinə yetirildiyi haqqında hələ yanvarın 20-də raport vermişdir. Yanvarın 25-də ət-süd kombinatının əməkçiləri planı ödəmişlər. Onlardan bir gün sonra Ordubad baramaaçan fabriki yanvar planını yerinə yetirmişdir. Bütövlükdə muxtar respublika yanvar ayı tapşırığını vaxtından üç gün tez ödəmişdir.

Şübhə yoxdur ki, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına Xalqlar dostluğu ordeninin təqdim edilməsi sizin respublikanızın fəhlələri, kolxozçuları, ziyalıları arasında yeni əmək coşğunluğuna və siyasi fəallığa səbəb olacaq və onlar 1974-cü ili yeni nailiyyətlərlə başa çatdıracaqlar.

Yoldaşlar! İcazə verin, SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanını oxuyum. *(Fərman oxunur)*

İcazə verin, Xalqlar dostluğu ordenini Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına təqdim edim.



***Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev Xalqlar dostluğu ordenini muxtar respublikanın bayrağına sancarkən 21 fevral 1974-cü il***

*(Heydər Əliyev alqışlar altında Xalqlar dostluğu ordenini Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının bayrağına sancır. "Dostluq, dostluq, dostluq!" şüarları səslənir).*

Yoldaşlar, bir daha sizə və sizin şəxsinizdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının bütün zəhmətkeşlərinə yeni böyük müvəffəqiyyətlər, yeni nailiyyətlər, möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram.

İki ordenli Naxçıvan Muxtar Sovet Sosialist Respublikası var olsun və çiçəklənsin!

# УКАЗ

## ПРЕЗИДИУМА ВЕРХОВНОГО СОВЕТА СССР

О награждении Нахичеванской Автономной Советской Социалистической Республики орденом Октябрьской Революции

За успехи, достигнутые в коммунистическом строительстве, и в связи с 50-летием со дня образования Нахичеванской АССР наградить НАХИЧЕВАНСКУЮ АВТОНОМНУЮ СОВЕТСКУЮ СОЦИАЛИСТИЧЕСКУЮ РЕСПУБЛИКУ орденом ОКТЯБРЬСКОЙ РЕВОЛЮЦИИ.

Председатель Президиума
Верховного Совета СССР Н.ПОДГОРНЫЙ.

Секретарь Президиума
Верховного Совета СССР М.ГЕОРГАДЗЕ.

Москва, Кремль.
3 октября 1974 г.
№ 364-IX.

## Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Oktyabr İnqilabı ordeni ilə təltif edilməsi haqqında

## SSRİ ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN

## FƏRMANI

Kommunizm quruculuğunda qazandığı müvəffəqiyyətlərə görə və Naxçıvan MSSR-in yaradılmasının 50 illiyi ilə əlaqədar olaraq Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Oktyabr İnqilabı ordeni ilə təltif edilsin.

**SSRİ Ali Soveti Rəyasət Heyətinin Sədri:** N. PODQORNI

**SSRİ Ali Soveti Rəyasət Heyətinin Katibi:** M.GEORQADZE

*Moskva, Kreml*
*3 oktyabr 1974-cü il*



*Naxçıvan MSSR-in yaradılmasının 50 illik yubiley təntənələrində iştirak etmək üçün Naxçıvana səfər edən Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin Naxçıvan Dəmiryol vağzalında qarşılanması*
*1974-cü il*





**_Naxçıvan Dəmiryol vağzalında Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin qarşılanması 1974-cü il_**



Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin Naxçıvan Dəmiryol vağzalında qarşılanması
1974-cü il

## Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin və Naxçıvan MSSR Ali Sovetinin təntənəli iclası

Çiçəklənən respublikaya çevrilmiş qədim Naxçıvan yarım əsr ərzində tanınmaz dərəcədə dəyişilmişdir. Qazandığı müvəffəqiyyətlərə görə və yaradılmasının 50 illiyi ilə əlaqədar olaraq Naxçıvan Muxtar Respublikası Oktyabr inqilabı ordeni ilə təltif edilmişdir. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının 50 illiyi münasibətilə oktyabrın 4-də C.Məmmədquluzadə adına Musiqili Dram Teatrında Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin və Naxçıvan MSSR Ali Sovetinin birgə təntənəli iclası oldu.

Azərbaycan KP MK-nın birinci katibi H.Ə.Əliyev, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Q.Ə.Xəlilov, respublika Nazirlər Sovetinin sədri Ə.İ.İbrahimov, Bakı Şəhər Partiya Komitəsinin birinci katibi Ə.H.Kərimov, Naxçıvan Vilayət Partiya Komitəsinin birinci katibi A.A.Hüseynov, Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin sədri S.A.Əliyeva, Naxçıvan MSSR Nazirlər Sovetinin sədri Y.M.Nəbiyev, Qırmızı Bayraq ordenli Zaqafqaziya Sərhəd Dairəsi qoşunlarının rəisi general-mayor A.Q.Viktorov, Qırmızı Bayraq ordenli Zaqafqaziya Hərbi Dairəsi qoşunları komandanının müavini general-leytenant V.İ.Karpov, Naxçıvan Vilayət Partiya Komitəsi bürosunun üzvləri və büro üzvlüyünə namizədlər, Naxçıvan MSSR Ali Soveti Rəyasət heyətinin üzvləri, yubiley şənliklərində iştirak etmək üçün Naxçıvana gəlmiş nümayəndə heyətlərinin rəhbərləri, istehsalat qabaqcılları, mədəniyyət və elm xadimləri təntənəli iclasın rəyasət heyətində əyləşmişdilər.

Təntənəli iclası giriş sözü ilə Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin sədri S.A.Əliyeva açdı. Təntənəli marş sədalarının və iclas iştirakçılarının alqışları altında Naxçıvan Muxtar Respublikasının bayrağı, Sov.İKP MK-nın, SSRİ Ali Soveti Rəyasət Heyətinin, SSRİ Nazirlər Sovetinin və ÜİHİMŞ-in Xatirə bayrağı, habelə 1973-cü ildə Ümumittifaq sosializm yarışında ən yüksək nəticələr əldə etdiyi üçün Naxçıvan MSSR-in layiq görüldüyü bayraq salona gətirildi.

Salondakılar tərəfindən səmimi qarşılanan Sov.İKP MK üzvü, Azərbaycan KP MK-nın birinci katibi H.Ə.Əliyevə söz verildi. Heydər Əliyevin nitqi böyük diqqətlə dinlənildi və alqışlarla qarşılandı.

Sonra isə Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin birinci katibi A.A.Hüseynov, Bakı Partiya Komitəsinin birinci katibi Ə.H.Kərimov, Dağlıq Qarabağ Vilayət Partiya Komitəsinin birinci katibi B.C.Gevorkov, Zəngilan, Cəbrayıl və Füzuli Rayon Partiya Komitəsinin birinci katibi Q.Ş.Əhmədov, Qırmızı Bayraq ordenli Zaqafqaziya hərbi Dairəsi Qoşunları komandanının

müavini, general-leytenant B.İ.Karpov, Naxçıvan elektrik-quraşdırma idarəsinin quraşdırıcısı, SSRİ Ali Sovetinin deputatı Vaqif Talıbov, Şərur rayonundakı Arpaçay üzümçülük sovxozunun manqabaşçısı Nigar Cəfərova, Y.Məmmədəliyev adına Naxçıvan Pedaqoji İnstitutunun tələbəsi İradə Rzayeva, Azərbaycan Yazıçılar İttifaqı Naxçıvan şöbəsinin məsul katibi Müzəffər Nəsirli çıxış etdi.

Çıxışlardan sonra salonda şeypur, təbil səsləri eşidildi. Gənclər təntənəli iclasın iştirakçılarını təbrik etməyə gəlmişdilər. Uşaqlar Vətəni tərənnüm edən şerlər dedilər.

Naxçıvan MSSR Nazirlər Sovetinin sədri Y.M.Nəbiyev iclası bağlayarkən Naxçıvan MSSR-nin yubileyi və Oktyabr İnqilabı ordeni ilə təltif edilməsi ilə əlaqədar olaraq Naxçıvan MSSR zəhmətkeşlərini səmimi təbrik etdikləri, onlara xoş arzularını bildirdikləri üçün natiqlərə Vilayət Partiya Komitəsi, respublika Ali Sovetinin Rəyasət Heyəti və Nazirlər Soveti adından səmimi təşəkkür etdi. O, muxtar respublikanın bütün zəhmətkeşləri adından Sov.İKP Mərkəzi Komitəsini, SSRİ Ali Sovetinin Rəyasət Heyətini və SSRİ Nazirlər Sovetini, Azərbaycan SSRİ Ali Sovetinin Rəyasət Heyətini və Azərbaycan SSRİ hökumətini əmin etdi ki, özlərinin əməyinə verilmiş yüksək qiymətdən ruhlanan Naxçıvan MSSR fəhlə sinfi, kolxozçu kəndliləri və ziyalıları yeni müvəffəqiyyətlər qazanmaq üçün bütün qüvvələrini, səy və bacarıqlarını sərf edəcəklər. Təntənəli iclas bağlı elan edildi.

Təntənəli iclasın iştirakçıları üçün böyük bayram konserti verildi. Konsertdə Bakının və Naxçıvan MSSR-in incəsənət ustaları, Naxçıvan və sərhədçilərin bədii özfəaliyyət kollektivləri iştirak edirdilər.

*"Şərq qapısı" qəzeti,*
*5 oktyabr 1974-cü il*

## Naxçıvan MSSR-nin yaradılmasının 50 illiyinə həsr edilmiş təntənəli iclasda Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin

## Ç I X I Ş I



***Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev Naxçıvan MSSR-in yaradılmasının 50 illiyinə həsr olunmuş yığıncaqda çıxış edərkən***
***1974-cü il***

Əziz Yoldaşlar!

Bu gün Naxçıvanın, bütün Azərbaycanının zəhmətkeşləri böyük və nurlu bayramı - Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının 50 illiyini təntənə ilə qeyd edirlər. Ölkəmizin bütün millətləri və xalqlarının mehriban, yekdil ailəsi bu əlamətdar yubiley günlərində bizim sevincimizə ürəkdən şərik olurlar. Buna görə də bütün respublikalar kimi, Naxçıvanın da yarım əsrlik yubileyi möhkəm qardaşlıq və dostluğun əhəmiyyətini bir daha böyük qüvvə ilə açıb göstərir.

Yoldaşlar, icazə verin, bu fərəhli gündə Sov.İKP Mərkəzi Komitəsi, SSRİ Ali Sovetinin Rəyasət Heyəti və SSRİ Nazirlər Soveti adından, habelə Azərbaycan KP MK, Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti və respublika



*Naxçıvan MSSR-in 50 illiyinə həsr olunmuş təntənəli iclasın rəyasət heyəti*
*4 oktyabr 1974-cü il*

Nazirlər Soveti adından sizin şəxsinizdə Naxçıvan zəhmətkeşlərini Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının 50 illiyi, həmçinin ona fəxri mükafatın - Oktyabr inqilabı ordeninin verilməsi münasibəti ilə təbrik edim.

Yoldaşlar!

Naxçıvan yarım əsr ərzində böyük və şanlı yol keçibdir. 50 il tarixdə bir an kimidir. Lakin iqtisadi, ictimai, siyasi və mədəni tərəqqi pillələri ilə yüksəlişimizin hər ili on illərə bərabərdir. İndi Naxçıvan qabaqcıl sənaye, mexanikləşdirilmiş kənd təsərrüfatı, yüksək mədəniyyət respublikasıdır. Bu isə muxtar respublikanın, bütün Azərbaycanın fəhlə sinfi, kolxozçu kəndliləri və xalq ziyalılarının ilhamlı, yaradıcı əməyinin qanunauyğun bəhrəsidir.

Naxçıvanı, vaxtı ilə geri qalan bu diyarı vətənimizin cənub sərhədlərində çiçəklənən respublikaya çevirmiş Naxçıvan əməkçiləri bu gün hədsiz sevinir və fəxr edirlər ki, onların nəcib əməyinə yüksək qiymət verilmiş, Naxçıvan MSSR Oktyabr inqilabı ordeni ilə mükafatlandırılmışlar.

Yoldaşlar!

Naxçıvan MSSR-i tərəqqiyə çatdıran, azad və xoşbəxt həyata qovuşduran yol tarixin ağır sınaqlarından keçibdir. Naxçıvanın xalq kütlələri əsrlər boyu öz azadlıq və istiqlaliyyətini saysız-hesabsız yadelli istilaçılardan qoruyur, yerli zülm-

karlara qarşı inadlı mübarizə aparırdılar. Naxçıvanın əməkçi xalqı məşəqqət və məhrumiyyətlərlə dolu həyat sürürdü. Naxçıvan kəndliləri bir parça çörəyi qantər içində qazanırdılar, zəmiləri, bağları becərir, suvarma kanalları çəkirdilər. Naxçıvanın mahir ustaları Azərbaycan memarlığının qiymətli inciləri sayılan gözəl saraylar, məqbərələr tikirdilər, lakin bu sarayları və məqbərələri yaradanlar özləri sınıq-sökük daxmalarda yaşayırdılar. Naxçıvanın görkəmli mütəfəkkirləri Azərbaycan mədəniyyətini şöhrətləndirirdilər. Lakin bilik xəzinəsinin qapıları zəhmətkeşlərin üzünə bağlı idi.

Naxçıvan xalq kütlələri xanlara və bəylərə, xarici işğalçılara, onların əlaltıları olan daşnaklara qarşı fədakarlıqla, rəşadətlə mübarizə aparırdılar. Düşmənlər inqilab hərəkatının iştirakçılarına atəşlə, qılıncla divan tutur, Naxçıvanın sərvətlərini çapıb-talayır, şəhər və kəndlərini qan dəryasında qərq edirdilər. Lakin mübarizə dayanmırdı. 1919-cu ilin yayında Ordubad, Şahbuz və Şərur zəhmətkeşləri müdaxiləçilərə, onların quyruğu olan burjua millətçilərinə qarşı qəti çıxış etdilər.

Naxçıvan ölkəsinin tarixən təşəkkül tapmış siyasi və coğrafi mövqeyi ona gətirib çıxardı ki, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 1924-cü il 9 fevral tarixli dekreti ilə Naxçıvan ölkəsi Azərbaycan SSR tərkibində Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrildi.

Bu gün, bu şənlik günündə Naxçıvanda zavodlar, elektrik stansiyaları tikən, kanallar çəkən, planları şərəflə, ləyaqətlə, əsil inqilabi coşqunluqla yerinə yetirən adamları böyük ehtiramla yada salırıq.

Böyük Vətən müharibəsinin ağır illərində digər əməkçilər kimi, Naxçıvan əməkçiləri də vətənimizin azadlıq və istiqlaliyyətini müdafiə etmək üçün ayağa qalxdılar. Onlar ağır döyüşlərdə rəşadətlə vuruşur, arxada fədakarlıqla işləyir, faşist işğalçıları üzərində qələbəni yaxınlaşdırmaq üçün qüvvələrini əsirgəmirdilər.

Naxçıvan MSSR-in oğul və qızlarının döyüş cəbhələrində göstərdiyi igidliklər qədirbilən nəsillərin xatirində əbədi yaşayacaqdır. Naxçıvanlı Sovet İttifaqı qəhrəmanlarının - Qəzənfər Əkbərovun, Abbas Quliyevin, Nəcəfqulu Rəfiyevin, Buhenvaldda gizli təşkilat rəhbərlərindən biri olan Əkbər Ağayevin adları əbədi şöhrət qazanmışdır.

Müharibədən sonrakı illərdə bütün Azərbaycan zəhmətkeşləri kimi, Naxçıvan zəhmətkeşləri də iqtisadi, ictimai-siyasi və mədəni inkişafın yeni zirvələrini fəth etdilər.

İnqilabdan əvvəl Naxçıvanda sənaye yox idi. İndi Naxçıvan MSSR-də böyük sənaye vardır və 60 növdən artıq sənaye məhsulu buraxılır. Sənaye istehsalının həcmi Naxçıvan MSSR-in yaradıldığı 1924-cü ildəkinə nisbətən 150 də-

fədən çox artmışdır. İndi Naxçıvan MSSR-də ən çoxu iki gün ərzində bütün 1913-cü ildəkindən artıq sənaye məhsulu buraxılır. 1973-cü ildə respublikada müharibədən əvvəlki 1940-cı ildə istehsal edildiyindən 183 dəfə çox elektrik enerjisi istehsal edilmişdir.

1923-cü ildə Naxçıvana ilk traktor göndərildi. İndi Naxçıvanın tarlalarında 1.600-dən artıq traktor, kombayn, pambıqyığan maşın, yük avtomobili, minlərlə digər maşınlar işləyir. Respublikanın kənd təsərrüfatı çoxsahəli, yüksək dərəcədə mexanikləşdirilmiş təsərrüfatdır. Suvarma, aqrotexnika, kənd təsərrüfatı istehsalının mexanikləşdirilməsi, elektrikləşdirilməsi və kimyalaşdırılması geniş miqyas almışdır.

Respublikanın mədəni həyatında heyrətamiz dəyişikliklər baş vermişdir. Keçmişə aid acınacaqlı bir fakt gətirmək istəyirəm: İnqilabdan əvvəl naxçıvanlıların hər 100 nəfərindən 98 nəfəri savadsız idi. İndi isə Naxçıvan MSSR-də müxtəlif təhsil növlərinə 70 mindən artıq adam cəlb olunmuşdur. Başqa sözlə desək, əhalinin hər üç nəfərdən biri təhsil alır. Naxçıvan Pedaqoji İnstitutunun açılması, Azərbaycan SSR Elmlər Akademiyası Naxçıvan elm mərkəzinin yaradılması respublikanın mədəni yüksəlişinə qayğı və diqqətin ifadəsidir.

Naxçıvanda yeni, xalq ziyalıları yetişmişdir. Burada minlərlə müəllim və həkim, mühəndis və texnik, kənd təsərrüfatı mütəxəssisi, alim, ədəbiyyat və incəsənət xadimi yaşayıb yaradır. Naxçıvanda boya-başa çatan bir çox istedadlı adamlar Azərbaycanda və ölkənin başqa yerlərində xalq təsərrüfatının müxtəlif sahələrində, elm və mədəniyyət ocaqlarında çalışırlar. Azərbaycan xalqı ədəbiyyat, elm və mədəniyyətimizin görkəmli naxçıvanlı nümayəndələri olan böyük maarifçi humanist Cə-



*Naxçıvan MSSR-in 50 illiyinə həsr olunmuş təntənəli iclasın iştirakçıları*
*4 oktyabr 1974-cü il*

lil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, coşqun ilhamlı şair-dramaturq Hüseyn Cavid və görkəmli alim Yusif Məmmədəliyevlə haqlı olaraq fəxr edir.

Qadınların əsarətdən xilas edilməsi Azərbaycanda, o cümlədən Naxçıvan MSSR-də böyük nailiyyət oldu. İndi Naxçıvanda on minlərlə qadın xalq təsərrüfatının və mədəniyyətin bacarıqlı, fəal təşkilatçısı olmuşdur.

İndi Naxçıvan dinamik inkişaf edən çoxsahəli iqtisadiyyatı, inkişaf etmiş ictimai strukturu, yüksək səviyyəli maarif, səhiyyə və mədəniyyəti olan muxtar respublikadır.

Yoldaşlar, başlıcası isə odur ki, Naxçıvan diyarının əmək adamları öz torpağının, öz müqəddəratının əsil sahibidir.

Naxçıvanın minlərlə oğul və qızları orden və medallarla təltif edilmişdir. Zəhmətkeşlərin 21 nəfərinə Sosialist əməyi qəhrəmanı adı verilmişdir. Respublika ziyalılarının ən yaxşı nümayəndələri fəxri adlara layiq görülmüşdür.

İndi Azərbaycanın, Naxçıvan Muxtar Respublikasının fəhlə sinfinə, bütün zəhmətkeşlərinə öz işləri üçün yüksək məsuliyyət hissi, sözündə möhkəm durmaq, əmək fəallığı, mütəşəkkillik, yüksək siyasi şüur kimi nəcib keyfiyyətlər xasdır.

Yoldaşlar!

Naxçıvan MSSR zəhmətkeşləri iqtisadi və mədəni quruculuq sahəsində böyük müvəffəqiyyətlər qazanmışlar. Yeni sənaye müəssisələri, o cümlədən toxuculuq fabriki, alüminium qablar zavodu, dəmir-beton zavodunun birinci növbəsi, ilkin şərabçılıq zavodları işə salınmışdır. Dəyirman kombinatı, quşçuluq fabriki, Arpaçay su qovşağı və başqa obyektlər tikilməkdədir. Araz çayında su-elektrik stansiyasının və hidrotexniki qurğular kompleksinin tikilib istifadəyə verilməsi mühüm hadisə oldu.

Yeniliyin vüsəti müqayisədə aşkara çıxır. Bunu deмək kifayətdir ki, təkcə 1974-cü ildə Naxçıvan MSSR-də müharibədən əvvəlki dövrlərə nisbətən bir neçə dəfə çox əsaslı vəsait qoyulmuşdur.

Cari ildə də işlər pis getmir. Naxçıvan sənayesi doqquz aylıq tapşırığı vaxtından əvvəl yerinə yetirmişdir. İstifadəyə verilən əsas fondların həcmi xeyli çoxalmışdır. Biz cari ilin taxıl, pambıq, üzüm, barama, süd, yun və yumurta tədarükü planlarını vaxtından əvvəl yerinə yetirən kənd əməkçilərinin müvəffəqiyyətlərini razılıq hissi ilə qeyd edirik.

Respublikada yaşayış evləri və kommunal müəssisələri tikintisinin sürəti artır, yeni mədəniyyət sarayları və mədəniyyət evləri istifadəyə verilir, fəhlələrin əmək haqqı, kolxozçuların gəliri durmadan artır.



*Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev muxtar respublikanın bayrağına Oktyabr İnqilabı ordenini sancarkən*
*4 oktyabr 1974-cü il*

Yoldaşlar!

Naxçıvan zəhmətkeşləri üzümüzə gələn onuncu beşillikdə iqtisadi və ictimai inkişafın daha mürəkkəb problemlərini həll etməli olacaqlar. Sənayeni və kənd təsərrüfatını inkişaf etdirmək, xüsusən su təsərrüfatı qurğuları tikintisini genişləndirmək üçün böyük məbləğdə əsaslı vəsait ayrılması nəzərdə tutulmuşdur. Ən yeni texnikaya, mütərəqqi texnologiyaya əsaslanan bir sıra sənaye müəssisələri tikiləcəkdir. Su təsərrüfatı qurğuları tikintisi getdikcə genişlənəcəkdir. Naxçıvan çayında Vayxır dəryaçası yaradılacaq, Əlincəçay suvarma sistemi yenidən qurulacaq, Bənəniyar dəryaçası və bir sıra başqa iri obyektlər tikiləcəkdir. Muxtar respublikanın kənd təsərrüfatı daha yüksək səviyyəyə qalxacaqdır.

Yoldaşlar!

Çoxmillətli Azərbaycan özünün gözəl beynəlmiləlçilik ənənələri ilə haqlı olaraq fəxr edir. Bu ənənələr sınaqlardan keçmiş və zənginləşmişdir. Xalqlar dostluğunun Naxçıvanda da dərin kökləri vardır. Qədim vaxtlardan burada azərbaycanlılar, ruslar və bir çox başqa xalqın nümayəndələri vahid, mehriban ailə kimi yaşayır və işləyirlər. Əlamətdardır ki, hələ keçən əsrin sonunda Naxçıvanın qabaqcıl ictimaiyyətinin təşəbbüsü ilə şəhərdə Aleksandr Sergeyeviç Puşkinin anadan olmasının 100 illiyi qeyd edilmiş, bir küçəyə böyük rus şairinin adı verilmişdi.

Əziz yoldaşlar!

SSRİ Ali Soveti Rəyasət heyətinin tapşırığı ilə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına Oktyabr inqilabı ordenini təqdim etmək mənim üçün olduqca xoşdur.

İcazə verin, SSRİ Ali Soveti Rəyasət heyətinin fərmanını oxuyum (fərman oxunur).

Yoldaşlar! Bu gün Sovet Naxçıvanının qırmızı bayrağında Lenin ordeni və Xalqlar dostluğu ordeni ilə yanaşı Oktyabr inqilabı ordeni də parladı.

İcazə verin, Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi, respublika Ali Sovetinin Rəyasət heyəti və Nazirlər Soveti adından sizi və sizin şəxsinizdə muxtar respublikanın bütün zəhmətkeşlərini Vətənin yüksək mükafatı münasibətilə bir daha səmimi təbrik edim.

Biz ürəkdən inanırıq ki, muxtar respublikanın fəhlə sinfi, kolxozçu kəndliləri və ziyalıları fədakar işləmək və siyasi fəallıq göstərməklə fəxri mükafata layiqincə cavab verəcəklər.

Yaşasın üç ordenli Naxçıvan Muxtar Sovet Sosialist Respublikası!



*Naxçıvan MSSR-in 50 illiyinə həsr olunmuş təntənəli yığıncağın bədii hissəsi*
*4 oktyabr 1974-cü il*



Naxçıvan MSSR-in yaradılmasının 50 illiyinə həsr olunmuş təntənəli yığıncağın bədii hissəsi
4 oktyabr 1974-cü il



Zeynəb Xanlarova Naxçıvan MSSR-in yaradılmasının 50 illiyinə həsr olunmuş təntənəli yığıncağın bədii hissəsində çıxış edərkən
4 oktyabr 1974-cü il



*Rəşid Behbudov Naxçıvan MSSR-in yaradılmasının 50 illiyinə həsr olunmuş təntənəli yığıncağın bədii hissəsində çıxış edərkən*
*4 oktyabr 1974-cü il*

# NAXÇIVAN MSSR XALQ TƏSƏRRÜFATI NAİLİYYƏTLƏRİ SƏRGISİ

Muxtar respublikanın yarım əsrlik yubileyinin qeyd edildiyi günlərdə Naxçıvanda muxtar respublikanın xalq təsərrüfatı nailiyyətləri sərgisi açılmışdır. Sərginin açılışında Naxçıvan MSSR-in sənaye və kənd təsərrüfatı istehsalatının qabaqcılları, elm və mədəniyyət xadimləri, partiya və sovet işçiləri, habelə yubiley şənliklərinə gəlmiş nümayəndə heyətləri iştirak edirdilər.

Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev qırmızı lenti kəsdi.



*Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev Xalq təsərrüfatı nailiyyətləri sərgisinin açılışını edərkən 1974-cü il*

Buraya toplaşanlar sərgi salonuna daxil oldular. Sərgidə Naxçıvan MSSR-in yarım əsrlik fəaliyyətindən bəhs edən çoxlu eksponat, stend və diaqram vardır.

Bir vaxt geridə qalan və unudulan Naxçıvan indi güclü sənayeyə və inkişaf etmiş kənd təsərrüfatına, qabaqcıl mədəniyyətə malik respublikaya çevrilmiş, Şərqin qapısında əsil mayak olmuşdur.

Sənaye istehsalının həcmi 1924-cü ildəkinə nisbətən 150 dəfədən çox artmışdır. Muxtar respublikanın sənayesi iki gündə bütün 1913-cü il ərzində istehsal edildiyindən çox məhsul istehsal edir. Hazırda muxtar respublikada 60 növdən çox

məhsul buraxan 30 sənaye müəssisəsi işləyir. Sərgidə filizçıxarma sənayesi və yüngül sənaye məhsulları, tikinti materialları sənayesi məhsulları, Naxçıvan MSSR-də zəngin olan faydalı qazıntıların nümunələrinin kolleksiyası və bir çox digər eksponatlar nümayiş etdirilir.

Ekspozisiyada kənd təsərrüfatına mühüm yer verilmişdir. Stend və diaqramlar Naxçıvan MSSR-də kənd təsərrüfatı istehsalının necə intensivləşdirildiyini, kolxoz və sovxozlarda texnikadan, mineral gübrələrdən, əkin suyundan necə istifadə olunduğunu əyani şəkildə göstərir. Stendlərdə sarı tütün yarpaqları və şirəli üzüm salxımları, ağappaq pambıq qozası və sarı qarğıdalı qıçaları diqqəti özünə cəlb edir. Elə buradaca yeyinti məhsulları sənayesinin, emal müəssisələrinin buraxdığı məhsullar göstərilir. Bu məhsullar arasında ölkəmizin hüdudlarından kənarda məşhur olan Ordubad Aqrar-Sənaye Birliyinin konservləri, Culfa və Şərur müəssisələrində hazırlanan əla şərablar, Şahbuzda çıxan "Badamlı" mineral suyu və bir çox başqa məhsullar vardır.

Alüminiumdan və şüşədən qurulmuş sərgi pavilyonunun binası inşaatçıların Naxçıvan MSSR zəhmətkeşlərinə bayram hədiyyəsidir. Azərbaycan Quraşdırma və Xüsusi Tikinti işləri trestinin Bakıdakı xüsusi quraşdırma idarəsinin kollektivi respublikada ilk dəfə olaraq Naxçıvanda yüngül millərdən ibarət konstruksiyadan istifadə etmişdir. Tikinti və bəzək materiallarından - mərmərdən, travertindən, şüşəprofilitdən və sairədən geniş istifadə olunmuşdur. Ümumi sahəsi 1.700 kvadratmetr olan bu binanın çoxunu sərgi salonu tutur.

Azərbaycan KP MK-nın birinci katibi H.Ə.Əliyev sərginin ekspozisiyasının ideyasına, onun bir sıra eksponatlarına, layihəçilərin və inşaatçıların işinə yüksək qiymət verdi. O qeyd etdi ki, sərgi Naxçıvan MSSR zəhmətkeşlərinin nailiyyətlərini təbliğ etmək üçün səmərəli vasitəyə çevrilə bilər və çevrilməlidir.

*"Şərq qapısı" qəzeti*
*4 oktyabr 1974-cü il*





*Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev Xalq təsərrüfatı nailiyyətləri sərgisində 1974-cü il*



*Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev Naxçıvan MSSR-in yaradılmasının 50 illiyinə həsr olunmuş xalq təsərrüfatı nailiyyətləri sərgisində 1974-cü il*



*Naxçıvan 1974-cü il*



*Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev Naxçıvan MSSR-in yaradılmasının 50 illiyinə həsr olunmuş yubiley tədbirinin iştirakçıları C.Məmmədquluzadə adına Ədəbiyyat Muzeyi ilə tanış olarkən*
*1974-cü il*



***Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev Naxçıvan şəhəri ilə tanış olarkən***
***1974-cü il***



Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev Naxçıvan şəhəri ilə tanış olarkən
1974-cü il



*Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin Naxçıvan ictimaiyyəti ilə görüşü*
*1974-cü il*



**_Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev_**
**_Naxçıvan şəhəri ilə tanış olarkən_**
**_1974-cü il_**



*Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev Naxçıvan şəhəri ilə tanış olarkən*
*1974-cü il*



Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev Naxçıvan ictimaiyyəti ilə görüşü
1974-cü il

# NAXÇIVANDA BAYRAM NÜMAYİŞİ

Payız günəşinin şüaları ilə isinən qədim və həmişəcavan Naxçıvan torpağında böyük və fərəhli bayramdır. Elə bil günəşin şüaları bu gün Naxçıvanın mərkəzi meydanında cəmləşmişdir. Burada Naxçıvan MSSR-in 50 illiyi və onun Oktyabr inqilabı ordeni ilə təltif edilməsi münasibətilə muxtar respublika zəhmətkeşlərinin bayram nümayişi keçirildi.

Naxçıvanın baş meydanı bu günü bayraqların və transparantların qırmızı şəfəqi, orkestrlərin sədaları ilə qarşıladı. Böyük lövhə üzərində muxtar respublikanın paytaxtı Naxçıvanın gerbi və "1924-1974" rəqəmləri görünür. Həmin rəqəmlər iqtisadiyyat və mədəniyyətin yüksək zirvələrinə qalxmış bu qədim diyarın keçdiyi böyük yolu göstərir.

Naxçıvan MSSR-də yarım əsr ərzində xalq təsərrüfatının bütün sahələrində əsaslı dəyişikliklər həyata keçirilmişdir. Şəhərin və onun mərkəzi meydanının tərtibatı plakat, rəsm və diaqramların dili ilə bu barədə söhbət açır. Azərbaycan KP MK-nın birinci katibi H.Ə. Əliyev, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Q.Ə.Xəlilov, respublika Nazirlər Sovetinin sədri Ə.İ.İbrahimov, Bakı Şəhər Partiya Komitəsinin birinci katibi Ə.H. Kərimov, Naxçıvan Vilayət Partiya Komitəsinin birinci katibi A.A. Hüseynov, Naxçıvan MSSR Ali Soveti Rəyasət heyətinin sədri S.A.Əliyeva, Naxçıvan MSSR Nazirlər Sovetinin sədri Y.M.Nəbiyev, Qırmızı Bayraq ordenli Zaqafqaziya Sərhəd Dairəsi qoşunlarının rəisi general-leytenant A.Q.Viktorov, Qırmızı Bayraq ordenli Zaqafqaziya Hərbi Dairəsi qoşunları komandanının müavini V.İ.Karpov, Naxçıvan Vilayət Partiya Komitəsi bürosunun üzvləri və büro üzvlüyünə namizədlər, bayram şənliklərinə gəlmiş nümayəndə heyətlərinin rəhbərləri, SSRİ, Azərbaycan SSR və Naxçıvan MSSR Ali Sovetlərinin deputatları, sənayedə və kənd təsərrüfatı qabaqcılları, mədəniyyət və elm xadimləri tribunada idilər.

"Yoldaşlar, cəsarətlə irəli" inqilabi mahnısının melodiyaları meydana yayılaraq, zəhmətkeşlərin nümayişinin başlandığını xəbər verdi. Nümayiş veteranlar dəstəsinin yürüşü ilə başlandı. Vətənimizi Böyük Vətən müharibəsi cəbhələrində müdafiə edənlər bir cərgədə addımlayırdılar. Onlarla çiyin-çiyinə əmək veteranları və öz atalarından, böyük qardaşlarından estafeti qəbul edib bu gün onlarla birlikdə müəssisələrdə, tikintilərdə, kolxoz və sovxozlarda çalışanlar yarışın önündə addımlayır. Onların bir çoxunun sinəsində Sovet İttifaqı Qəhrəmanlarının və Sosialist Əməyi Qəhrəmanlarının qızıl ulduzları parıldayır.



*Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev Naxçıvan MSSR-in yaradılmasının 50 illiyinə həsr olunmuş bayram nümayişində Şərur "Yallı" ansamblının çıxışını izləyərkən 1974-cü il*

Meydanın mərkəzində nümayişçilərin ön dəstəsini uşaqlar qarşıladılar. Onlar veteranlara çiçək dəstələri təqdim edərək, sanki bununla respublika və ölkə üçün gördükləri işlərə görə onlara təşəkkürlərini bildirdilər.

Zavod və fabriklərin, kolxoz və sovxozların, idarə və tədris müəssisələrinin əməkçiləri iki cərgədə meydana daxil oldular.

Adamların çöhrəsinə sevinc dolu təbəssüm qonmuşdu. Nümayişin iştirakçıları Naxçıvan MSSR-in nailiyyətləri ilə fəxr edirlər.

Naxçıvan MSSR zəhmətkeşlərinin qazandıqları əmək qələbələri haqqın-

da raportlar yazılmış transparantlar nümayişçi dəstələrinin başı üzərində görünür.

Öz beşilliyini 3 il 4 ayda yerinə yetirdiyi haqqında raport vermiş tütün-fermentasiya zavodunun kollektivi, xalq üçün mallar buraxılışını artıran tikişçilər, mebelçilər, şərabçılar, çörəkçilər, ət-süd kombinatının əməkçiləri nümayişçilərin ilk sıralarında addımlayırdılar.

Duz mədəninin əməkçiləri meydana daxil oldular. Onlar məhsul hasilatının ilin əvvəlindən bəri 13 faiz artırılması, 9 aylıq tapşırığın və beşilliyin birinci dörd ili planının vaxtından əvvəl yerinə yetirilməsi haqqında raportla nümayişə gəlmişdilər.

Naxçıvan MSSR torpağının altında böyük sərvətlər yatır. Nümayişə mədənçi geyimində, çəkiclə və digər əmək alətləri ilə çıxmış mədənçilərin dəstələrinin apardıqları transparantlar bu barədə söhbət açırdı.

Ordubad aqrarsənaye meyvə kombinatı bayramqabağı günlərdə gərgin işləmiş, planı artıqlaması ilə yerinə yetirmişdir.

Tanış siqnal səsi eşidildi və kabinəsində maşinist əyləşən "teplovoz" meydana daxil oldu. Semaforda yaşıl işıq yandı və Culfa lokomotiv deposunun "teplovozu" ləngimədən meydandan keçdi. Bu müəssisənin dəmiryolçuları iftixarla raport verirlər: "On aylıq plan vaxtından əvvəl yerinə yetirilmişdir!".

Meydan bir anlığa pambıq "tarlasına" çevrildi. Burada önlüklü qızlar məhsul yığırdılar. Azacıq sonra pambığı üzüm əvəz etdi. Bu il Naxçıvan MSSR-in kənd təsərrüfatı əməkçiləri bol üzüm məhsulu yetişdirmişlər. Sonra üzümü tütün əvəz etdi.

Nümayişçi dəstələrində Naxçıvan ziyalılarının nümayəndələri fəxri yer tuturlar. Bu yaxınlarda muxtar respublikanın ilk ali məktəbi olan pedaqoji institut və Azərbaycan Elmlər Akademiyası elm mərkəzinin kollektivləri Naxçıvan ziyalılarının dəstəsinə daxil olmuşlar. Elm mərkəzinin alimləri Naxçıvan MSSR-in zəngin təbii ehtiyatlarını öyrənmək üçün kompleks tədqiqatlar aparır, bunları xalq təsərrüfatının xidmətinə vermək işinə kömək edirlər.

Naxçıvan məktəbliləri əllərindəki qırmızı bayraqları, rəngbərəng lentləri mehribanlıqla yellətdilər. 6 nömrəli məktəbin qızları əllərində iri qozaları açılmış pambıq budaqları tutmuşdular. Onların apardıqları transparantda belə bir raport yazılmışdı: 200 ton pambıq yığılmışdır. Məktəbli dəstələrinin tərtibatı onların necə oxuduqlarından, yaşlılara necə kömək etdiklərindən, tətbiqi idman növlərinə necə yiyələndiklərindən söhbət açırdı. Qüvvəsini və əməyini əsirgəmədən uşaqları biliklərlə silahlandıran müəllimlər öz

yetirmələri ilə bir cərgədə addımlayırdılar.

Səhiyyə, incəsənət, mədəni-maarif müəssisələri işçilərinin dəstələri tribunanın önündən keçib getdilər.

Bir neçə dəqiqə meydana sakitlik çökdü. Sonra meydan qırmızı və göy rəngli kostyumlar geymiş gənc idmançılarla doldu. İdman-gimnastika proqramı göstərilməyə başlandı. Sonra idmançılar meydanda "50" rəqəmi şəklində düzüldülər.

*"Şərq qapısı" qəzeti*
*5 oktyabr 1974-cü il*



*Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev Naxçıvan MSSR-in yaradılmasının 50 illiyinə həsr olunmuş bayram nümayişini izləyərkən*
*1974-cü il*



*Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev Naxçıvan MSSR-in yaradılmasının 50 illiyinə həsr olunmuş bayram nümayişində 1974-cü il*





*Naxçıvan MSSR-in yaradılmasının 50 illiyinə həsr olunmuş bayram nümayişi*
*1974-cü il*




***Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev Naxçıvan MSSR-in yaradılmasının 50 illiyinə həsr olunmuş bayram nümayişi iştirakçıları ilə birlikdə 1974-cü il***



# NAXÇIVAN MUXTAR RESPUBLİKASI 60

## 1924-1984

## AZƏRBAYCAN KOMMUNİST PARTİYASI MƏRKƏZİ KOMİTƏSİNƏ

9 fevral 1984-cü ildə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının yaranmasından 60 il ötür.

Naxçıvan MSSR-in 60 illiyi diyarın çoxəsrli tarixində, bütün Azərbaycan xalqının həyatında böyük siyasi əhəmiyyətli hadisədir.

Naxçıvan bu gün qabaqcıl sənaye, mexanikləşmiş kənd təsərrüfatı, yüksək inkişaf etmiş elm və mədəniyyət respublikasıdır. Sovet İttifaqı KP MK və Azərbaycan KP MK-nın diqqəti sayəsində muxtar respublika diyarın sosial-iqtisadi inkişafında ildən ilə yeni uğurlar qazanır. Sovet İttifaqı KP-nin XXVI qurultayı və Azərbaycan KP-nın XXX qurultayı, Sovet İttifaqı KP MK-nın may və noyabr (1982-ci il) Plenumlarının tarixi qərarları respublika zəhmətkeşlərini sosial tərəqqinin yeni yüksəklişlərinə çağırır.

Muxtar respublika zəhmətkeşlərinin sosialist və kommunist quruculuğunda nailiyyətləri Kommunist Partiyası və Sovet hökuməti tərəfindən yüksək qiymətləndirilmişdir. Naxçıvan MSSR Lenin, Oktyabr inqilabı və SSSR xalqlarının Dostluğu ordenləri ilə təltif olunmuşdur. Respublikanın fəhlə, kolxozçu, xidmətçilərinin fədakarcasına əməyi dəfələrlə Vətənin yüksək mükafatları ilə qiymətləndirilmişdir.

1981-ci ilin yekununda Naxçıvan MSSR sosialist yarışlarda göstərdiyi yüksək göstəricilərə görə Azərbaycan KP MK, Azərbaycan SSR Nazirlər Soveti, Azərbaycan LKGİ MK və HİAS (Həmkarlar İttifaqının Azərbaycan Soveti) Keçici Qırmızı bayrağı ilə təltif olunmuşdur.

Naxçıvan Muxtar Respublikası zəhmətkeşləri yüksək siyasi düşüncə və əmək fəallığı göstərərək, 60 illik yubileylərini yeni nailiyyətlər ilə qarşılamağa hazırdılar və daha böyük əmək və ruh yüksəkliyi ilə çalışmağı fikirləşirlər.

Hal-hazırda Ali Sovet Rəyasət Heyəti və Naxçıvan MSSR Nazirlər Soveti ilə birlikdə Vilayət Partiya Komitəsi tərəfindən muxtar respublika yubileyinin layiqincə qarşılanması üçün konkret tədbirlər işlənib hazırlanır və həyata keçirilir.

Bununla əlaqədar olaraq respublika xaricində yaşayan 50 nəfərdən ibarət partiya, əmək və komsomol veteranlarını, eləcə də Azərbaycan SSR və Dağlıq-Qarabağ Muxtar Vilayətindən (hər birindən 5-7 nəfər) dəvət etməklə Naxçıvan MSSR 60 illiyini respublika tədbiri kimi keçirməyi məqsədəuyğun görürük. Yubiley təntənələri ərəfəsində Bakı şəhərində və DQMV-də

(Dağlıq-Qarabağ Muxtar Vilayəti) Naxçıvan MSSR günləri keçirilsin.

Kömək göstərilməsi məqsədi ilə Azərbaycan SSR Dövlət Plan Komitəsi və Nazirlər Sovetinə tapşırılsın ki, vilayət partiya komitəsi və Naxçıvan MSSR Nazirlər Soveti ilə birlikdə yubileyə hazırlıq ilə bağlı, eləcə də respublikanın yubiley obyektləri üzrə keçirilən hazırlıq işlərinin maddi-texniki təminatı və şəhərin abadlığı məsələlərinə baxılsın və həll olunsun.

Yubiley münasibətilə 6-8 çap vərəqi ilə, Azərbaycan və rus dillərində "Sovet Naxçıvanı" kitabını dərc etməyi, mənzərəli foto-albomlar, eləcə də döş nişanları və konvertlər buraxmağı məqsədəuyğun görürük.

1-2 əmək kollektivlərinə Naxçıvan MSSR 60 illiyi adı verilsin.

Bilavasitə muxtar respublikanı, eləcə də xalq təsərrüfatı qabaqcılları, partiya veteranları, ziyalı nümayəndələri və mədəniyyət işçiləri olmaqla 30 nəfər hökumət mükafatları və Fəxri fəmanlar ilə təltif olunsunlar. Yubiley təntənələrinin kənd təsərrüfatı ilinin sonuna 1984-ü ilin sentyabr-oktyabr aylarında keçirilməsi uyğun hesab olunur.

Yuxarıda qeyd olunanlara baxılması xahiş olunur.

**Azərbaycan KP Naxçıvan**
**Vilayət Komitəsinin katibi:** **K.RƏHİMOV**

Naxçıvan şəhəri,
16 may 1983-cü il

## Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının 60 illiyi haqqında

## AZƏRBAYCAN KOMMUNİST PARTİYASI MƏRKƏZİ KOMİTƏSİ BÜROSUNUN

## Q Ə R A R I

1. Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının yaranmasının 60 illik təntənəsinin 1984-cü ilin oktyabr ayında keçirilməsi haqqında təklifi qəbul edilsin.

2. Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin 1984-cü ilin sentyabr ayında Bakı şəhərində və DQMV-də (Dağlıq-Qarabağ Muxtar Vilayəti) Naxçıvan MSSR Günlərinin keçirilməsi haqqında təklifi qəbul edilsin. Dağlıq Qarabağ Vilayət Komitəsinə və Azərbyacan KP Bakı şəhər komitəsinə tapşırılsın ki, Naxçıvan MSSR günlərinin yüksək təşkilati-siyasi səviyyədə keçirilməsini təmin etsin.

3. Azərbaycan KP MK nəzdində partiya Tarix İnstitutuna tapşırılsın ki, Naxçıvan Vilayət Partiya Komitəsi ilə birlikdə 1984-cü ilin sentyabr ayında Naxçıvan şəhərində muxtar respublikanın 60 illiyinə həsr olunan elmi sessiya keçirsin.

4. Naxçıvan MSSR-in yaranmasının 60 illiyi ilə əlaqədar:

- Azərbaycan SSR Nazirlər Soveti və Dövlət Plan Komitəsinə tapşırılsın ki, Naxçıvan Vilayət Partiya Komitəsi və Naxçıvan MSSR Nazirlər Soveti ilə birlikdə muxtar respublikanın yubiley obyektlərində aparılan hazırlıq işlərinin maddi-texniki təminatı və Naxçıvan şəhərinin abadlığı məsələlərinə baxsın və həll etsin;
- Azərbaycan SSR Dövlət Nəşriyyat Komitəsinə tapşırılsın ki, Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi ilə birlikdə 8 çap vərəqi ilə Azərbaycan və rus dillərində "Sovet Naxçıvanı" kitabı, eləcə də Naxçıvan MSSR-in görünüşləri ilə mənzərəli foto-albom hazırlasın və nəşr etsin;
- Mədəniyyət, yerli sənaye nazirlikləri, Azərbaycan Rəssamlar İttifaqı tərəfindən yubiley medalı və döş nişanları hazırlansın;
- Azərbaycan SSR Rabitə Nazirliyi xatirə konvertlərinin hazırlanmasını təmin etsin.

5. Naxçıvan Vilayət Komitəsinin "Azərbaycan Mineral Sular" İstehsalat Birliyinə Naxçıvan MSSR 60 illiyi adı verilməsi haqqında təklifi qəbul edilsin.

6. Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin təklifi əsasında 15 nəfərə Azərbaycan SSR fəxri adı verilsin, 15 nəfər isə Azərbaycan SSR Ali Sovet Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif olunsun.

**KATİB: K.BAĞIROV**

Bakı şəhəri,
28 iyun 1983-cü il

**Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi burosunun 1983-cü il 29 iyul tarixli iclasının 61 nömrəli protokolundan**

## ÇIXARIŞ

**Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının 60 illiyi haqqında**

Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi bürosu **qərara alır:**

1. Azərbaycan KP MK-nın 28 iyun 1983-cü il tarixli "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının 60 illiyi haqqında" qərarı nəzərə alınsın və icra edilsin.

2. Naxçıvan MSSR-in 60 illiyinin qeyd olunması məqsədi ilə yubiley komissiyası yaradılsın.

3. Naxçıvan MSSR-in 60 illiyinin qeyd olunmasına dair təşkilati-siyasi tədbirlər təsdiq edilsin. (əlavə olunur)

4. Naxçıvan şəhər, rayon partiya komitələrinə tapşırılsın ki, Naxçıvan MSSR-in 60 illiyinə dair tədbirlər hazırlansın və keçirilsin.

5. Naxçıvan MSSR-in 60 illiyinə qədər beş illik tapşırığı yerinə yetirən istehsalatın əmək kollektivlərinin və qabaqcıllarının mükafatlandırılması üçün respublika fəxri fərmanı hazırlansın.

6. İdeoloji təşkilatlar və mətbuat orqanlarına tapşırılsın ki, həm hazırlıq dövründə, həm də yubiley günlərində ideya-siyasi tədbirlərin keçirilməsinin, çap olunacaq nəşrlərin və Naxçıvan MSSR-in 60 illiyinə həsr olunan məqalə, materialların, radio və televiziya üzrə verilişlərin təqvim planlarını hazırlasın.

7. Şəhər, Rayon Partiya Komitələrinə, Naxçıvan MSSR Nazirlər Sovetinə, muxtar respublikanın nazirlik və idarələrinə tapşırılsın ki, Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinə görülən iş haqqında hər rüb məlumat verilsin.

8. Verilmiş qərarın yerinə yetirilməsinə nəzarət Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin şöbələrinə həvalə edilsin. Verilmiş məsələ ilə əlaqədar Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin, Naxçıvan MSSR Nazirlər Sovetinin, Naxçıvan Vilayət Həmkarlar İttifaqı Soveti və Azərbaycan LKGİ Naxçıvan Vilayət Komitəsinin qərarı qəbul edilsin.

**Azərbaycan KP Naxçıvan**
**Vilayət Komitəsinin katibi: K.Rəhimov**

*Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi bürosunun 1983-cü il 29 iyul tarixli iclasında təsdiq edilmişdir.*

## Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının 60 illiyinin qeyd olunmasına dair

## TƏŞKİLATİ-SİYASİ TƏDBİRLƏR

| № | Tədbirlər | İcra müddəti | İcraya məsul şəxslər |
|---|---|---|---|
| 1. | Naxçıvan MSSR-nin 60 illik təntənəsinin proqramı hazırlansın | 10 yanvar 1984-cü il | Abbasov M.D, Qasımova E.M |
| 2. | Muxtar respublikanın partiya, sovet və ictimai təşkilatlarının, qardaş respublikaların deleqasiyalarının, istehsalat qabaqcıllarının partiya və əmək veteranlarının, Sovet Ordusu əsgərlərinin iştirakı ilə Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin və Naxçıvan MSSR Ali Sovetinin təntənəli iclası keçirilsin | 16 yanvar 1984-cü il | Abbasov M.D, Qasımova E.M |
| 3. | Naxçıvan Qarnizon hissələrinin hərbi yürüşü keçirilsin | 15 yanvar 1984-cü il | İmranov N.Ş, Arxipov M.İ, Taraşenko P.P |
| 4. | Naxçıvan şəhər zəhmətkeşlərinin nümayişləri təşkil edilsin | 16 yanvar 1984-cü il | Abbasov M.D, Qasımova E.M, Həsənov N.H |
| 5. | Partiya və xalq deputatlar Soveti şəhər, rayon komitələrinin, ictimai təşkilatlar və hərbi hissələr nümayəndələrinin təntənəli iclaslarının vaxtları və şəhər, rayon mərkəzləri və digər yaşayış məntəqələri zəhmətkeşlərinin mitinqlərinin vaxtları təyin olunsun. | 10 yanvar 1984-cü il | Abbasov M.D, Həsənov N.H |
| 6. | Təbrik göndərilən şəxslərin siyahıları Yubiley Komissiyasına təqdim olunsun | 1 yanvar 1984-cü il | Abbasov M.D, Həsənov N.H |

| № | Tədbirlər | İcra müddəti | İcraya məsul şəxslər |
|---|---|---|---|
| 7. | Partiya və əmək veteranlarının, Böyük Vətən müharibəsi iştirakçılarının, istehsalat qabaqcıllarının Azərbaycan SSR və Naxçıvan MSSR fəxri adları ilə, Azərbaycan SSR və Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanları ilə mükafatlandırılması haqqında təkliflər hazırlansın | 10 yanvar 1984-cü il | Abbasov M.D, Musayev H.D, Ələkbərov İ.S, Xəlilov H.S, Məmmədov A.A, Həsənov N.H, şəhər və rayon partiya komitələri |
| 8. | Bütün sahələr üzrə mükafatlandırılan heyət haqqında təkliflər Yubiley Komissiyasına təqdim edilsin | 10 yanvar 1984-cü il | Qolubyev A.M, Cəfərov H.H |
| 9. | Şəhər, rayon partiya komitələri üçün məktub layihələri hazırlansın | 1dekabr 1983-cü il | Qazıbəyov R.S, Vilayət partiya komitəsinin təbliğat və təşviqat şöbəsi |
| 10. | Muxtar respublikanın obyektlərinə Naxçıvan MSSR 60 illiyi adının verilməsi haqqında təkliflər hazırlansın | 5 yanvar 1984-cü il | Qolubyev A.M, Cəfərov H.H, Hacıyev Z.S, Azərbaycan KP Vilayət komitəsinin sədri |
| 11. | Hərbi orkestrin müşayiəti ilə Naxçıvan şəhərinin magistral küçələrində mərkəzi meydanda bitməsi şərti ilə yürüş təşkil olunsun | 20 fevral 1984-cü il | Musayev H.D, Arxipov M.İ, Toraşenko P.P |
| 12. | Ev, küçə, meydan, müəssisə və təşkilatlarda Naxçıvan MSSR-in 60 illiyi ilə əlaqədar respublika iməciliyi keçirilsin | 4 fevral 1984-cü il | Hacıyev Z.S, Qasımova E.M, Cəfərov H.H, Qazıbəyov R.S, Əkbərov A.A, şəhər və rayon partiya komitələri |

| № | Tədbirlər | İcra müddəti | İcraya məsul şəxslər |
|---|---|---|---|
| 13. | Naxçıvan MSSR xalq təsərrüfatının nəaliyyətləri sərgisi pavilyonunun təmiri başa çatdırılsın | 1 yanvar 1984-cü il | Səfərov S.A, Qasımov E.M, Seyidov M.S |
| 14. | Sərginin tematik-ekspozisiya planı Komissiyaya təqdim edilsin | 1 fevral 1984-cü il | Qurbanov İ.H, İbrahimov M.K |
| 15. | Sərgi Yubiley ekspozisiyası ilə tam təchiz edilsin | 10 fevral 1984-cü il | İbrahimov M.K, Səfərov S.A, Qurbanov İ.H, Adıgözəlov B.A, Seyidov M.S |
| 16. | Təntənəli iclasa Mədəniyyət sarayı və qonaqların qəbulu üçün mehmanxana hazırlansın | 1 fevral 1984-cü ilə qədər | Səfərov S.A, Qasımova E.M |
| **İDEOLOJİ VƏ MƏDƏNİ -KÜTLƏVİ TƏDBİRLƏR** | | | |
| 17. | Mərkəzi meydanda bədii-idman tamaşası və bayram nümayişi təşkil edilsin | 10 yanvar 1984-cü il | Qasımova E.M, Seyidov M.S, Həsənov N.H |
| 18. | Təbrik məktublarının layihəsi Azərbaycan KP Mərkəzi Komitəsinə təqdim edilsin | 1 yanvar 1984-cü il | Həsənov N.H, İbrahimov M.K |
| 19. | Naxçıvan incəsənət ustalarının bayram konserti təşkil edilsin | 20 fevral 1984-cü il | Həsənov N.H |
| 20. | Konsertin proqram layihəsi baxılmaq üçün Yubiley Komissiyasına təqdim edilsin | 25 yanvar 1984-cü il | Həsənov N.H |
| 21. | Mədəniyyət sarayının bayram tərtibatı üzrə eskizlər hazırlansın | 10 yanvar 1984-cü il | Həsənov N.H, Qardaşbəyov A.H |
| 22. | Emblemlərin, dəvət biletlərinin, proq - ramların eskizləri hazırlansın, baxılmaq üçün Yubiley Komissiyasına təqdim edilsin və vaxtlı-vaxtında çapları təmin olunsun | 10 yanvar 1984-cü il | Həsənov N.H, Qardaşbəyov A.H, İbrahimov H.M |

| № | Tədbirlər | İcra müddəti | İcraya məsul şəxslər |
|---|---|---|---|
| 23. | "Sovet Naxçıvanı" qəzetinin Yubiley nömrəsi buraxılsın | 15 fevral 1984-cü il | Həsənov N.H, Kərimova S.A, Əliyev E.H |
| 24. | Kütləvi informasiya və təbliğat vasitələrində yubiley nəşrlərinin planı hazırlansın və baxılmaq üçün Yubiley Komissiyasına təqdim edilsin | 10 yanvar 1984-cü il | Həsənov N.H, Kərimova S.A, Əliyev E.H |
| 25. | Komissiyanın baxışı üçün yubileyə həsr olunan ictimai-siyasi və bədii verilişlərin ssenarisi hazırlansın | 10 yanvar 1984-cü il | Həsənov N.H, Əliyev E.H |
| 26. | Yaxşı göstəricilərə nail olan istehsalat qabaqcıllarının, partiya, müharibə və əmək veteranlarının qəzet, televiziya və radioda çıxışları təşkil edilsin | yanvar-fevral 1984-cü il | Şəmilova A.A, Əliyev E.H, Kərimova S.A, Seyidov M.A |
| 27. | Yubileyə həsr olunan tamaşa və konsertlər hazırlansın | 1 yanvar-fevral 1984-cü il | Həsənov N.H, Mədəniyyət Nazirliyi |
| 28. | Naxçıvan şəhərinin Yubiley tərtibatının eskizləri Yubiley Komissiyasına təqdim edilsin | 10 yanvar 1984-cü il | Qasımova E.M, Məmmədov T.H |
| 29. | Yubiley nişanları buraxılsın | 1 fevral 1984-cü ilə qədər | Mədəniyyət Nazirliyi |
| | **TƏŞKİLATİ- TƏSƏRRÜFAT TƏDBİRLƏRİ** | | |
| 30. | Muxtar respublikanın Yubiley obyektləri və Naxçıvan şəhərinin abadlığı üzrə keçirilən hazırlıq işlərinin maddi-texniki məsələsinə baxılsın və həll edilsin | İl ərzində | Qolubyev A.M, Hacıyev Z.S, Məmmədov O.K |
| 31. | Naxçıvan şəhərinin abadlığı və küçə, meydan və bağçaların bərpa olunmasına dair lazımi işlər görülsün | 10 fevral 1984-cü ilə qədər | Qasımova E.M, Seyidov M.S, Səfərov S.A |

| № | Tədbirlər | İcra müddəti | İcraya məsul şəxslər |
|---|---|---|---|
| 32. | Muxtar respublikanın rayon, şəhər, qəsəbə və böyük kəndlərində, sənaye və kənd təsərrüfatı müəssisələrində, ticarət və xidmət sahəsi müəssisələrində Naxçıvan MSSR-in 60 illiyinə nümunəvi hazırlıqla bağlı baxışlar keçirilsin | 10 fevral 1984-cü il | Şəhər, rayon, vilayət partiya komitələri şöbəsi |
| 33. | Yubiley tədbirlərinin yüksək səviyyədə keçirilməsi üçün aeroport və dəmiryol vağzalında zəruri hazırlıq təmin edilsin | 10 fevral 1984-cü il | Adıgözəlov B.A, Məmmədov T.H |
| 34. | Qonaqların qəbulu üçün mehmanxana və evlərdə hazırlıq təmin edilsin | 1 fevral 1984-cü il | Qurbanov İ.H, Səfərov S.A, Seyidov A.M, Kərimov R.S |
| 35. | Ticarət və ictimai iaşə müəssisələri gərəkli qaydaya salınsın, mağaza vitrinləri bayramsayağı tərtib olunsun, işıq reklamı təzələnsin | yanvar-fevral 1984-cü il | Cəfərov H.H, İbrahimov M.K, Musayev H.D, İmanov D.A, Hüseynov M.D, Səfərov A.Y |
| 36. | Portfellər, suvenir bloknotları hazırlansın | 1984-cü il yanvar ayının so - nuna qədər | Seyidov A.M, Kərimov R.S |
| 37. | Qonaqların gəzintisi üçün obyektlərin siyahısı müəyyənləşdirilsin | 15 fevral 1984-cü il | Qolubyev A.M, Cəfərov H.H, Abbasov M.D, Qasımova E.M, Məmmədov T.H |
| 38. | Abadlıq və Yubiley tərtibatına dair həmin obyektlərdə zəruri işlər görülsün | Fevral, 1984-cü il | Qolubyev A.M, Cəfərov H.H, İbrahimov M.K, Abbasov M.D, Qasımova E.M |

| № | Tədbirlər | İcra müddəti | İcraya məsul şəxslər |
|---|---|---|---|
| 39. | Azərbaycan SSR Dövlət Nəşriyyat Komitəsi ilə birlikdə 8 çap vərəqi həcmində, Azərbaycan və rus dillərində "Sovet Naxçıvanı" kitabı, eləcə də rəngarəng fotoalbom və kitablar çap olunsun | 15 dekabr 1983-cü ilə qədər | Cəfərov H.H., İbrahimov M.K, Həsənov N.H |
| 40. | Azərbaycan Dövlət Nəşriyyat Komitəsinin 1984-cü ilə dair planına Naxçıvanda yaşayan yazıçı və şairlərin əsərlərinin salınması | sentyabr-oktyabr 1983-cü il | Cəfərov H.H, Həsənov N.H, İbrahimov M.K |
| 41. | Azərbaycan Yazıçılar İttifaqı Naxçıvan şöbəsi tərəfindən hazırlanan "Naxçıvanı tərənnüm edirəm" şeirlər kitabının nəşr edilməsi | Aprel-avqust 1984-cü il | Cəfərov H.H, Həsənov N.H, İbrahimov K.M |
| 42. | "Naxçıvan-Sovet İttifaqı və Sosialist Əmək Qəhrəmanları" haqqında oçerklər toplusu nəşr edilsin | İyul-avqust 1984-cü il | Cəfərov H.H, Həsənov N.K, Kərimova S.A, İbrahimov K.M |

## Naxçıvan Vilayət Partiya Komitəsinin və Naxçıvan MSSR Ali Sovetinin təntənəli iclası

Naxçıvan son illərdə əsrlərə bərabər yol keçmişdir. Naxçıvana muxtariyyət verilməsi sosial inkişafın, iqtisadiyyatın və mədəniyyətin bütün sahələrində böyük müvəffəqiyyətlər qazanılmasına kömək etmişdir. Naxçıvan MSSR-in yaradılmasının 60 illiyi münasibətilə noyabrın 17-də respublika Uşaqların Bədii Evində Naxçıvan Vilayət Partiya Komitəsinin və Naxçıvan MSSR Ali Sovetinin birgə təntənəli iclası olmuşdur. Ev yubiley ərəfəsində istifadəyə verilmişdir.

Azərbaycan KP MK-nın birinci katibi, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri, Bakı Şəhər Partiya Komitəsinin birinci katibi, Naxçıvan Vilayət Partiya Komitəsinin birinci katibi, Dağlıq Qarabağ Vilayət Partiya Komitəsinin birinci katibi, Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin sədri, Naxçıvan MSSR Nazirlər Sovetinin sədri, Bakının, DQMV-nin nümayəndə heyətləri, partiya, müharibə və əmək veteranları, sənaye və kənd təsərrüfatı istehsalatı qabaqcılları, elm və mədəniyyət xadimləri, döyüşçülər rəyasət heyətində əyləşmişdilər.

İclası Naxçıvan Vilayət Partiya Komitəsinin birinci katibi açmışdır. Sonra Azərbaycan KP MK-nın birinci katibi, Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin birinci katibi, Dağlıq Qarabağ Vilayət Partiya Komitəsinin birinci katibi, muxtar respublikanın İnqilabı Şöhrət Şurasının sədri çıxış etmişlər.

Salondakıların alqışları altında Qırmızı Bayraq Ordenli Zaqafqaziya hərbi Dairəsi, Qırmızı Bayraq Ordenli Zaqafqaziya Sərhəd Dairəsi döyüşçülərinin, Qırmızı Bayraq Ordenli Xəzər donanması dənizçilərinin təbrikləri oxunmuşdur.

Yekunda Bakı və Naxçıvan incəsənət ustalarının bayram konserti olmuşdur.

*Naxçıvan, 17 noyabr 1984-cü il*
*(Azərinformun xüsusi müxbiri)*






***Naxçıvan Muxtar Respublikasının yaranmasının 60 illik yubileyinin bədii hissəsində Naxçıvan incəsənət ustalarının çıxışı 1984-cü il***



Naxçıvan Muxtar Respublikasının yaranmasının 60 illik yubileyinin bədii hissəsində Bakıdan gələn incəsənət ustalarının çıxışı
1984-cü il




Naxçıvan Muxtar Respublikasının yaranmasının 60 illik yubileyinin bədii hissəsində Naxçıvan incəsənət ustalarının çıxışı
1984-cü il

***

Təntənəli iclasdan sonra qonaqlar Naxçıvan şüşə qablar zavoduna, Nehrəm kökəltmə birliyinə getmiş, əmək kollektivlərinin üzvləri ilə söhbət etmişlər.

Muxtar respublikanın yubiley bayramı günündə təntənəli şəkildə Naxçıvan çayının sağ sahilində iri yaşayış massivinin təməl daşı qoyulmuşdur, mərasimdə Azərbaycan SSR rəhbərləri iştirak etmişlər.

Şanlı yubiley şərəfinə yaşayış massivinin zonasında dostluq parkı salınmışdır.

*Naxçıvan,17 noyabr 1984-cü il*
*(Azərinformun xüsusi müxbiri)*

# MÜNDƏRİCAT

## Naxçıvan Muxtar Respublikasının yaradılmasına dair müxtəlif tarixi arxiv sənədləri

Naxçıvan Diyar Sovetlər Qurultayının 26 fevral 1923-cü il tarixli qərarı .... 6

Azərbaycan Kommunist Partiyası 3-cü Naxçıvan Diyar Qurultayının 27 fevral 1923-cü il tarixli qərarı ........ 7

Azərbaycan Mərkəzi İcraiyə Komitəsi Rəyasət heyətinin 31 dekabr 1923-cü il tarixli Qərarlar jurnalından çıxarış ........ 9

Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsinin birinci iclasının protokolu ..... 12

Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin Qərarı №7 ........ 16

Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin Dekreti ........ 18

Bütün Xalq Komissariatlarına, İcraiyyə komitələrinə, Bakı Sovetinə və Azərbaycan Xalq Komissarları Mərkəzi İcraiyyə komitəsinə ........ 20

## Naxçıvan Muxtar Respublikası 25

Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının 25 illiyinə dair tədbirlər haqqında Azərbaycan SSR Nazirlər Sovetinin Qərarı ........ 22

Naxçıvan MSSR-in 25 illiyinin hazırlanması və keçirilməsi haqqında Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi bürosunun Qərarı ........ 24

Naxçıvan MSSR-in kənd təsərrüfatı, sənaye, elm, mədəniyyət və incəsənət işçilərinin orden və medallarla təltif olunması haqqında SSSR Ali Soveti Rəyasət Heyətinin Sərəncamı ........ 26

## Naxçıvan Muxtar Respublikası 40

Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi bürosunun 1964-cü il 5 oktyabr tarixli iclasının 27 nömrəli prtokolundan çıxarış ............ 38

Naxçıvan MSSR-in 40 illiyi ilə əlaqədar Tədbirlər Planı ............................... 39

Azərbaycan Kommunist Partiyası Naxçıvan Vilayət Komitəsi Bürosunun Qərarı ............................................................................................... 44

Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin, Naxçıvan MSSR Ali Sovetinin Naxçıvan MSSR-in 40 illiyinə həsr olunmuş iclası .................. 45

Naxçıvan şəhər zəhmətkeşlərinin muxtar respublikanın 40 illiyinə həsr edilmiş təntənəli mitinqi ........................................................................... 47

Naxçıvan MSSR-in kənd təsərrüfatı qabaqcıllarına, səhiyyə, mədəniyyət və xalq təhsili işçilərinə fəxri adların təltif olunması haqqında Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi Bürosunun Qərarı ...................... 50

## Naxçıvan Muxtar Respublikası 50

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə ................................. 50

Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının 50 illiyi haqqında Azərbaycan Kommunist Partiyasi Mərkəzi Komitəsi Bürosunun qərarı .......... 51

Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının 50 illiyinə hazırlıq haqqında Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi Bürosunun 25 iyul 1973-cü il tarixdə keçirilən iclasının 63 nömrəli protokolundan çıxarış ........................................................................................ 53

Naxçıvan MSSR-in 50 illik yubileyi ilə bağlı Tədbirlər Planı ........................ 55

Bakı, Gəncə və DQMV-nin şəhərlərində Naxçıvan günlərinin keçirilməsi haqqında Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi Bürosunun 2 sentyabr 1974-cü il tarixli iclasının 14 nömrəli protokolundan çıxarış ........................ 60

Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının
Xalqlar dostluğu ordeni ilə təltif edilməsi haqqında
SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ............ 61

Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının bayrağında
Xalqlar dostluğu ordeni Naxçıvan Vilayət Partiya Komitəsinin və
Naxçıvan Muxtar Sovet Sosialist
Respublikası Ali Sovetinin təntənəli iclası ............ 62

Naxçıvan Vilayət Partiya Komitəsinin və Naxçıvan MSSR
Ali Sovetinin birgə təntənəli iclasında Azərbaycan KP MK-nın
birinci katibi Heydər Əliyevin çıxışı ............ 64

Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının
Oktyabr İnqilabı ordeni ilə təltif edilməsi haqqında
SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ............ 72

Naxçıvan Vilayət Partiya Komitəsinin və Naxçıvan
MSSR Ali Sovetinin təntənəli iclası ............ 76

Naxçıvan Vilayət Partiya Komitəsinin və Naxçıvan MSSR
Ali Sovetinin Naxçıvan MSSR-nin yaradılmasının 50 illiyinə
həsr edilmiş birgə təntənəli iclasında
Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin çıxışı ............ 78

Naxçıvan MSSR xalq təsərrüfatı nailiyyətləri sərgisi ............ 89

Naxçıvanda bayram nümayişi ............ 101

**Naxçıvan Muxtar Respublikası 60**

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə ............ 110

Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının 60 illiyi haqqında
Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi Bürosunun Qərarı ...... 112

Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının 60 illiyi haqqında

Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi burosunun
1983-cü il 29 iyul tarixli iclasının 61 nömrəli protokolundan çıxarış ............ 113

Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının 60 illik təntənəsinin
hazırlanması və keçirilməsinə dair təşkilati-siyasi tədbirlər ........................... 114

Naxçıvan Vilayət Partiya Komitəsinin və
Naxçıvan MSSR Ali Sovetinin təntənəli iclası .............................................. 120

# AZƏRBAYCAN RESPUBLİKASI

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ YUBİLEYLƏRİ
**1924-1984**

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi**

Naxçıvan, Əcəmi
053-2016

Yığıma verilmiş və səhifələnmişdir 05.02.2016.
Çapa imzalanmışdır 14.10.2016.
Şərti çap vərəqi 16,0. Formatı 70x100 1/8.
Sifariş 763. Tiraj 300.

Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.